www.kitabxana.net
Milli Virtual-Elektron Kitabxananın təqdimatında

Rəna Qurbanlı Qılıc

Qəlbimdən qopan incilər

Poeziya kitabı

YYSİB - 2025

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında



Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi

www.kitabxana.net

Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təqdimatında

"Çağdaş Azərbaycan poeziyası" seriyasından

Elektron kitab N 09 (06 - 2025)

Bu elektron nəşrlər kulturoloji-innovativ layihəsini həyata keçirən Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin həyata keçirtdiyi "Çağdaş Azərbaycan poeziyası" e-nəşrlər seriyası çərçivəsində hazırlanaraq yayımlanır.

Rəsmi FB səhifəmiz:

www.facebook.com/groups/kitabxana

Rəna Qurbanlı - Qılıcova

Qəlbimdən qopan incilər

Poeziya kitabı

Elektron kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb

Milli Virtual-Elektron Kitabxananın e-nəşri - 2025

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

**Aydın Xan Əbilov, yazıçı-kulturoloq,
Prezident təqaüdçüsü**

Müəllifin digər elektron kitabları burada:

https://kitabxana.net/author.php?author=961

Çağdaş Azərbaycan ədəbiyyatının istedadlı nümayəndəsinin yeni elektron kitabı. Müəllifin indiyə qədər 10 toplusu - "Hər ömürdən bircə gün", "Yaralı məhəbbət", "Tənha çiçək", "Yuxumda gördüyüm ev", "Qəlbimdən qopan incilər", "Zəhərli tikan", "Ana ürəyi", "44 günün sədası", "Sülh istəyirik", "Sirli ölüm" adlı kitabları işıq üzü görüb. Bu kitabında müxtəlif səpkili lirik əsərləri toplanıb. Sevgi aləmi, insana sayığı, həyata maraq kimi duyğular bu şeirlərin əsas mövzusudur. Müəllifin özünəxas poetik üslubu, maraqlı dəst-xətti, oxunaqlı forma və məzmun rəngarəngliyo, fərqli deyim tərzi, ifadə zənginliyi bu kitabda əks olunub.

DİQQƏT!

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

Təkrar e-nəşr

Bakı – YYSİB – 2025

ÖN SÖZ

"Qəlbimdən qopan incilər" adlandırdığı dördüncü kitabı ilə oxucularının görüşünə gələn Rəna Qurbanlı ürəyinin dərinliyində bəslədiyi hissləri sadə, anlaqlı dildə qələmə ala bilmişdi. Könlünü inci yatağına bənzədib, şerlərini övladı adlandırılan müəllifin misralarında bir ürəyin həssaslığı, istiliyi və mənəvi məsuliyyəti duyulur.

Poeziya insan həyatının, ruhunun, ovqatının ayrılmaz hissəsidir. Rəna xanım öz zəngin daxili dünyasına cəlb etməyə çalışır. Müəllif müasir dövrümüzdə cəmiyyətdə cərəyan edən hadisələri özünəməxsus şirin, axıcıl qafiyələrlə oxucularına çatdıra bilmişdir. Rəna xanım çox incə həyat müşahidələrindəndərin məna çıxaran, bədii ümumiləşdirmə yolu ilə gedən şairdir. Onun şerlərində vətənə və əsrarəngiz təbiət gözəlliklərinə məhəbbət, həzin, kövrək qadın və ana hissləri qoyulur.

Rəna xanımın vətən, torpaq sevgisinin bariz nümunəsi, Macarıstan torpaqlarında qəhrəman, yenilməz sərkərdə Atillaya həsr olunmuş mərasimdə Şəmistan Əlizamanlının səsləndirdiyi lirik mahnı Rəna

Qurbanlının sözlərinə bəstələnmişdir və Turan elləri tərəfindən çox böyük coşqu ilə qarşılanmışdı.

Rəna xanıma yeni yaradıcılıq uğurları arzulayıram.

Ümid edirəm ki, müəllifin bu kitabı da "Hər ömürdən bir gün", "Yaralı məhəbbət", "Tənha çiçək" adlı kitabları qədər oxucular tərəfindən seviləcəkdir.

Azər Kərimov,

Texnika elmləri doktoru, professor,

Çexiya-Azərbaycan Mədəni

Əlaqələr Mərkəzinin sədri,

Beynəlxalq Diaspor Mərkəzinin Avropa təmsilçisi

Ağarıb başın...

Oturdum sənlə mən üzbəüzə.

Nə böyük səadət üz verib bizə.

Mənə bəxş edibdi yaradan səni.

Dünyanın xoşbəxti edibdi məni.

İllər ötüb gedir çox yavaş-yavaş.

Yaşının üstünə gəlir yenə yaş.

Saçına dən düşüb, ağarıb başın.

Mənimçün uşaqsan artsa da yaşın.

Gördüm saçlarını qəhərləndim mən.

İstərəm çox cavan görünəsən sən.

Dağların başında qar olur, oğlum.

Bu dünya başıma dar olur, oğlum.

Ağaran saçların var öz ləzzəti!

Gizlədə bilmərik biz həqiqəti.

Qaytara biləydim saçlarını kaş.

Olaydı qapqara yenə də saç, qaş.

Ağrımasın o şirin canın...

Dağların başını duman, çən alır.

Baxıram, dörd yana qanım qaralır.

Qaranlıq çökübdür bu gün hər yana.

Xəyallar dolubdur bu şirin cana.

Köhnə xatirələr düşür yadıma,

Gör nələr yazıldı mənim adıma?

Tale yollarıma dönüb baxıram...

Qar kimi əriyib, su tək axıram.

Döndü xəyallara ötən günlərim,

Açılıb önümdə qızıl güllərim.

Gün keçdi, dəyişdi bütün dövranım,

Çox gözəl yetişdi yeni zamanım!

Gözəldir, həyatda yaşamaq hər an.

Hər anın dadı var, bax, buna inan!

Həyatda tək olsun, çörək, soğanın

Ancaq ağrımasın o şirin canın!

Ən böyük nemətdir canın sağlığı,

Sağlıqdan yaranır həyat bağlığı!

Həyatda hər bir şey gəldi-gedərdi,

İnsana nə etsə, tale edərdi!

Dumanın peşəsi dağda olmaqdır,

Gülün adətisə bir gün solmaqdır.

İnsanlar çox gözəl bir çiçəkdilər,

Vaxt tamam olanda köçəcəkdilər!

Yaradan qoyubdu bu qanunları,

Dəyişə bilməyir kimsə onları.

Alçanın şikayəti

Meyvələrin tacıyam,

Turşu kimi acıyam.

Yam-yaşıl rəngliyəm mən.

Sevilirəm deyəsən.

Çox turşdur mənim dadım,

Bax, alınçadır adım!..

Yaz ayları gələrəm,

Ağ çiçəklər ələrəm.

Sonra alça olaram,

Kasalara dolaram.

Süfrələri bəzərəm.

Duzla birgə gəzərəm.

Duzsuz olmayır dadım,

Çünki alçadır adım!

Dişlərlər yanağımı,

Pozarlar növrağımı.

Basarlar ora duzu,

Sanki yeyirlər quzu.

Gözümdən tökülər yaş,

Küsüb gedərəm bir baş.

Üstəlik çeynəyirlər,

Ağızda hərləyirlər.

Bundan ləzzət alırlar.

Tez mədəyə salırlar.

Adamlar olub yaman.

Verməyirlər heç aman.

Tutacaq ahım sizi.

Bir də görməzsiz bizi.

Ançaq deyirəm azı,

Heç gəlmərik bu yazı.

Duz qalar əlinizdə,

Baxıb gülərik biz də.

Qurban olum Allaha,

İnsanda bax tamaha.

Məcburdumu görəsən,

Alçaları yeyəsən.

Allahdan yolun bağlıdır!

Dedilər, sevmirsən heç qaranlığı.
Xoşuna gəlməyir bircə anlığı.

Həmişə demisən pərdəni açın,
İşığı yandırın, gür işıq saçın.

Nə qədər əzablı yolları keçdin.
Deyirəm, bəs niyə oranı secdin?

Saldırdın elə bir yerdə yatağı,
Qaranlıq bürüyüb orda otağı.

Dörd divar, qaranlıq, bax, bir də ki, sən.

Darıxıb, neynirsən orda, görəsən?

Yatağın buz olub, sənə toxunur.

Sənincün hər yerdə Quran oxunur.

Tikilib boğazın, açılmır ağzın.

Sənin heç yoxundu qələm, kağızın.

Allahım, nə işdi gəldi başına?

Zəhərmi qatıldı isti aşına?

Ürəyim darıxdı bax, deyən zaman.

Yanında olaydı kaş atan-anan.

Onların nəfəsi bəsiydi sənə.

Səni qoruyardı özləri yenə.

Ananın laylası, ata nəfəsi.

Ayağa qaldırar, inan, hər kəsi.

Bacın kömək olub, işıq salardı,

Səni tək qoymazdı, sənlə qalardı.

Nə yazıq, onlar da dönübdür daşa.

Eşitmir, heç nəyi, düşmürlər başa.

Allahım, nədir bu, yoxdur heç kəsin?

Tutulub nəfəsin, çıxmayır səsin.

Ömürlük məhkumsan sən o otağa,

Bağlısan qaranlıq, soyuq yatağa.

Otağın qaranlıq, kəfən ağlıdır,

Qardaşım, Allahdan yollar bağlıdır!..

Allahım qorusun!

Allahım bəxş edib səni özümə.
Qurbanam mən sənin qara gözünə.

Bir an mən görməsəm sənin üzünü,
O saat ölərəm, deyim, düzünü.

Mən nəfəs alıram sənin özündən.
İnciyə bilmirəm, heç vaxt sözündən.

Bəlkə də anayam, bilirəm özüm,
Səhvini görməyir, kor olur gözüm.

Ürəyin tərtəmiz güzgüyə bənzər.

Səs-küyün hər zaman evimi bəzər.

Yaş üstə nə qədər gəlsə də yaşın.

Ağarsa yenə də ağıllı başın.

Mənimçün həmişə körpəsən hələ.

Qurbanam üzünə toxunan yelə.

Əzizdi özümə ayaq izlərin.

Qoy qüvvə toplasın sənin dizlərin.

Allahım qorusun nəzərdən səni.

Sənlə sınağa çəkməsin məni.

Həmişə deyirəm mən dönə-dönə.

Qoy sənə gələnlər , gəlsinlər mənə.

Allahım, kəfəni cır, at!

Dözmədi ürəyim, bax, mənim yenə,

Kaş qonaq olaydım bircə gün sənə.

Bayramlar gəlibdi hər yerə indi.

Hər evdə, obada hamı sevindi.

Mənim evimdəsə var kədər, var qəm,

Heyif ki, sizlərlə deyiləm o dəm.

Allahım, bağlıdır qolum, qanadım,

Yadımdan çıxıbdır öz doğma adım.

Xəyalım həmişə, bax, sizinlədir,

Sizsizlik qəlbimi çox inildədir.

Gözlərim yollarda gözləyir sizi,

Bir dəfə görəydim kaş evimizi.

Tək ona qalıbdı, var bircə əlac,

Mən burda deyiləm nə susuz, nə ac.

Bircə istəyirəm sizləri görəm.

Bu görüş olar, bax, dərdimə məlhəm.

Onunçün yığılın, gəlin yanıma,

Rahatlıq yayılsın qoyun canıma.

Gələndə yanıma oluram rahat.

Nə olar, Allahım, kəfəni cır at!

Qabaqdan gəlir, bax, Novruz bayramı,

Yad edin, buraya yığışın hamı.

Bizim bayramımız adlanır qara,

Çünki həmişəlik düşmüşük dara!

Alma insanları

Həyat nədir, bildim özüm.

Bu dünyaya yoxdu sözüm.

Dünya dolur, gah çağlayır.

Zülüm-zülüm lap ağlayır.

Bu dünyaya gəlir insan.

Hər yer olur çılçıraqban.

Nə gözləyir onu hər an?

Təkcə Allah bilir, inan.

Aylar ötür, keçir zaman.

Bir-bir ölüb itir insan.

Hərdən dönüb, bax, arxaya.

İnanma sən günə, aya.

Gör, arxada kimlər qalıb?

Həyat səndən kimi alıb?

Dəhşətlidir həmin o an.

Çünki yoxdur bir çox insan.

Onlar çıxıb, bax, yoxa.

Əcəl baxmır aza, çoxa.

Dünya nədən oldun fani?

Əzraili etdin cani.

Hey dolursan, boşalırsan.

İnsanları sən alırsan.

Var gücümlə bağırıram.

Allahımı çağırıram.

Alma bizdən insanları.

Qoru hər an sən onları.

Ana, bax, anadır, qoca da olsa!

Allahım, nə görür mənim gözlərim?
Kəsərsiz olubdu daha sözlərim.

Necə ki cavandım, ötürdü sözüm,
Yararlı olmuşdum hər şeyə özüm.

Getdi cavanlığım, ağardı başım,
Qocaldım, doxsana çatıbdı yaşım.

Deyirlər, qocasan, daha danışma.
Görülən işlərə artıq qarışma.

Hər işi görürlər, hey cızılır plan.

Ehtiyac yoxdur ki, desinlər o an,

Məsləhət eləyək, bilsin anamız.

Deyirlər ustayıq, bizim hamınız.

Ölübdü ananın gözəl övladı.

Ölülər içinə qarışıb adı.

Ana, bax, anadır, qoca da olsa,

Qaməti əyilib, yaşa da dolsa.

Yenə layla calır, bax, əzizləyir,

Gözləri yollarda, onu gözləyir.

Hər işdə ananın vardır izləri,

Zülümlə düzəldir bax, cehizləri.

Yuxusuz gecələr ona yoldaşdır.

Əzablı günləri gizli sirdaşdır.

Qara hörükləri ağappaq olub,

Hər dərdi, kədəri qəlbinə dolub.

Bağlayır analar belinə qurşaq.

Dişiylə, dırnaqla böyüdür uşaq.

Ana hər uşağın yanan şamıdır,

Şam kimi əriyən onun canıdır.

Övladçün saçını süpürgə edib,

Cavanlıq onların yolunda gedib.

Bəlli bir yaşdadı, qocalmış ana.

Övladı itirib, doyubdur cana.

Üzübdü həyatdan bütün əlini,

Dərd, kədər bükübdür onun belini.

Yeriyə bilməyir, vardır əsası.

Bax, özü yük olub sözün qısası.

Gizlicə ağlayır, görən olmasın,

Heç kimin evinə matəm dolmasın.

Dodağın altından zümzümə edir.

Böyük bir kədərlə fikirə gedir.

Esası əlində yeriyə bilmir,

Sanki lal olubdur, danışmır, dinmir.

İstəyir bağrına bassın o, qəbri,

Tükənib, bax, sona yetibdi səbri.

Göylərə qalxıbdı ana naləsi.

Həmişə hiss edir onun ailəsi.

Evdəki adamlar ondan gizlicə,

O qəbri ziyarət etdilər tezcə.

Nədənsə, anaya, bax, qıymadılar,

Oraya getməyə heç qoymadılar.

Bundan xəbər tutdu ananın özü,

Çox təəccüb etdi, qurtardı sözü.

Səsləndi, ay Allah, bax, bu nə işdi?

Gözünün önündən gör nələr keşdi.

Düşündü, tamamən bax, yararsızam.

Allahım, deyəsən, yaman arsızam.

Mən yaxşı bilirəm, ölmək vaxtımdır.

Deyəsən, bax, bu da mənim baxtımdır.

Övladım əlimdən aldı kəfəni,

Baxın, nə günlərə salıbdı məni.

Mən daha qocayam, keçməyir sözüm.

Gərək çarəsini tapaydım özüm.

Mən qoca olsam da o, övladımdır.

Özümün ürəyim, mənim adımdır!

Oraya birinci mən getməliyəm!

Allahım, bax indi nə etməliyəm?

Yararsız deyildir gözəl anamız.

Çox yaxşı bilirik bunu hamımız.

Yaşlıydı, onunçün üstə əsdilər.

Üzülməsin deyə, yolun kəsdilər.

Dedilər, qoruyaq biz anamızı!

Bizə zəhmət çəkən bu sonamızı!

Əzablı günləri çox-çox olubdu.

Yarası irinlə, qanla dolubdu.

Qopmasın yaranın incə qərtməyi,

Bir himə bənddir ki, onun çərtməyi.

Bu qərtmək qoparsa, sel olar qanı,

Dözməyər bunlara ananın çanı.

Anaya onunçün heç qıymadılar,

Oraya getməyə bax, qoymadılar!

Anadır adı

Axtardım büsbütün bu dünyanı mən.

Bəlkə gözləyirsən məni yenə sən.

Boylandım heç yanda görmədim səni.

Tapmadım, yoxluğun çox üzdü məni.

Geyinər analar mələk libası.

Heç kimin ölməsin gözəl anası!

Hər yerdən əzizdi onun ocağı.

Ən gözəl cənnətdi ana qucağı.

Mən heyran olmuşam bu məhəbbətə!

Ölməyir analar, gedir cənnətə.

Geyinər analar mələk libası.

Heç kimin ölməsin gözəl anası.

Yanımda olaydı, kaş, anam bu an.

Unuda bilmirəm onu heç zaman.

Gözümün nurudu, ağzımın dadı.

Belə bir varlığın anadır adı.

Məzardan alıram indi ətrini.

Nə qədər istərdim onun xətrini.

Ayrıla bilməzdi bir anda məndən.

Bəs necə ayrılım, ay ana səndən?

Aristokrat xanımıydın

Gözəl üzlü, göz bəbəyim,

Mənim arzum, həm diləyim!

Sən evimin tək gülüydün,

Nəğmə deyən bülbülüydün.

Yuxudan bir oyanardıq,

Biz qoşaca dolanardıq.

Bölüşərdik dərdimizi,

Çox sevərdi hamı bizi.

Bənzəmirdin heç kimə sən,

Söyləmirəm bunu tək mən.

Aristokrat xanımıydın,

Sən özümün canımıydın

Gözəl bir göz həkimiydin,

Lap ağappaq qar kimiydin.

Əcəl səni aldı məndən,

Ayrı saldı məni səndən.

Tərk elədin bu dünyanı,

Unutmaram heç bu anı.

Sənsiz qaldım bu dünyada,

Hey salıram səni yada.

Ancaq bundan olmur fayda.

Nə yazıq ki, budur qayda...

Aslan parcalarımdır!

Başı qarlı dağımdır,

Nübarlı baharımdır.

Dövlətimdir, varımdır,

Aslan parcalarımdır.

İkisi bir ürəkdir,

Özümə çox gərəkdir.

Əvəzsiz nəvələrim,

Üstündədir əllərim.

Sizsiz günüm olmasın.

Bir çiçəyim solmasın.

Dünya durduqca, durun.

Arzudan çələng qurun.

Bax, mənim bu yaşımda,

O çələngdi başımda.

Səhər tezdən dururam,

Nə xəyallar qururam...

Bədənimin qanısız,

Dərdimin dərmanısız.

Belə sizin hamınız,

Bu nənənin canısız!

Atam

Gözümün nurudu, ağzımın dadı.

Əhmədov Turabdı atamın adı.

Sofulu kəndində gəlib cahana.

Sədası yayılıb çoxdan hər yana.

Görübdü dünyada o, yetmiş bahar.

Qəlbində çağlayıb gözəl arzular.

Hamının dərdinə yanan olubdu.

Zəhmətlə ucalıb, yaşa dolubdu.

Əl tutub həmişə doğmaya, yada.

Professor layiqdi aldığı ada.

Riyaziyyat elminin zirvəsindədi.

O, qurub, yaratmaq həvəsindədi.

Dar gündə hamıya dayaqdı, atam

Nəslimin önündə mayakdı, atam.

Qayğıkeş atadı, sevimli baba.

Fəxr edir atamla bütün el-oba.

Heyranam atamın mən həvəsinə

Adını veribdi öz nəvəsinə.

Gəzirlər hər yanı Turablar qoşa.

Ay ata, nəvənlə xoş ömür yaşa.

Qoy bilsin bu dünya, bütün bu cahan,

Sənlə fəxr edir öz oğlun Orxan.

Mübarək, ay ata, bu yetmiş yaşın!

Dərd, bəla görməsin heç zaman başın!

Atilla torpağı, böyük Hun yurdu!

Mahnı

Sözləri: Rəna Qurbanlı.

Musiqisi: Tahir Əkbər

Oxuyur: Şəmistan Əlizamanlı

Tarixlə yaşıddı Türkün dövləti,

Yayıldı hər yana şanı, şöhrəti.

Tanrıdan almışdı gücü, qüvvəti,

Adı əsirlərə keçən qürurdu,

Atilla toprağı, böyük Hun yurdu!

Boz qurdlar məskəni, Alplar oylağı,

Yanar könüllərdə Turan ocağı,

Göylərə yüksələn uca bayrağı,

Min illər adlayıb bir vətən qurdu!

Atilla torpağı, böyük Hun yurdu!

Soyumuz əbədi var olcaqdı,

Yer üzü durduqca, yaşayacaqdı.

Şaman duası ilə qorunacaqdı.

Bu qüdrətli dövlət, yenilməz ordu.

Atilla torpağı Macar - Hun yurdu!

Atilla torpağı Macar, Türk yurdu!

Atilla torpağı, böyük Hun yurdu!

Türkün torpaqları yenə genişdir.

Onun şücaəti kökdən gəlmişdir.

Bu dövlət tarixə möhrünü vurdu.

Bu uğur dünyada böyük uğurdu.

Atilla torpağı, böyük Türk yurdu.

Bu dövlət indi də əzəmətlidir,

Torpağı olduqca, bərəkətlidir.

Əsgəri cəsurdu, hərəkətlidir.

Hər yeri qoruyur böyük bir ordu.

Atilla torpağı, böyük Türk yurdu.

Getdikcə artıbdır şanı, şöhrəti,

Terroru lərzəyə salıb qüdrəti

Dağ kimi dayanıb türkün dövləti,

Düşmənə quvvəli zərbələr vurdu.

Atilla torpağı, böyük Türk yurdu.

Bir qarış torpağı verməz düşmənə,

Xidmət eyləyirlər onlar vətənə.

Dövləti qoruyur, bərkidir yenə.

Bu türklər yenilməz bir dövlət qurdu.

Atilla torpağı, böyük Türk yurdu.

Yenə də qalxaçaq onun şöhrəti,

Daha da möhkəmdir indi qudrəti.

Yenidən dünyaya türk ses salacaq.

Bütün dövlətlərə örnək olacaq.

Atilla torpağı, böyük Türk yurdu.

Dünyaya hökümran olacaqdılar.

Bu dünya durduqca duracaqdılar.

Tarixdə qalib tək qalacaqdılar.

Onların qazancı şanlı uğurdu.

Atilla torpağı, böyük Türk yurdu.

Düşmənə yenə də zərbə vuracaq.

Sülhün keşiyində dövlət duracaq.

Əmin -amanlığı möhkəm quracaq.

Onun əzəməti səddi uğurdu,

Atilla torpağı, böyük Türk yurdu!

Gücü yetəcəkdir sədlər aşmağa,

Məcbur edəcəkdi düşmən qaçmağa.

Davam eyləyəcək şölə saçmağa,

Şəhidin tökülən qanları nurdu.

Atilla torpağı, böyük Türk yurd!

Atilla

Miladdan təqribən düz min ıl əvvəl.

Tarix səhnəsinə hunlar gəldilər.

Qədim dövürlərdə həmin o zaman,

İlk imperator olmuşdu Teoman.

Ünlü imperator Mete olmuşdur.

Çin səddi onlara görə qurmuşdur.

Metenin ölmündən sonra bu hunlar,

Batı, Doğu kimi bölündü onlar.

Birinçi əsirin yüzilliyində,

Doğu parçalandı yenidən bir də.

Sonradan yeni bir dövlət quruldu,

Tarixə dövlətin möhrü vuruldu.

Atilladan əvvəl orda hökümdar,

Tarxan, Balamir, Alipbi oldular.

Uldız, Qaradon, Muncuq ve Rea,

Daxildir ordakı o siyahiya.

Atilla türk soylu bir sərkərdədir.

Şohrəti yayılmış tarixlərdədir.

Roma papasına diz çökdürmüşdü.

Minlərlə rəqibi o, öldürmüşdü.

Gəlişi dünyanı lərzəyə saldı,

“Tanrının qırmancı” adını aldı.

Atilla dörd böyük səfər etmişdir,

Balkanla Romanın üstə getmişdir.

Bütün döyüşlərdən məğrur dönmüşdür.

Naməlım əcəldən birdən ölmüşdür...

Atillanın ölümü

Möhtəşəm dövlətdir hunun dövləti!
Dünyaya yayılmış onun şöhrəti.

Hunlar olmuşdular türkün əcdadı,
Yazılmış tarixə onların adı.

Atilla olmuşdur huna hökümdar.
Tarixdə bu türkün özəl yeri var.

Atilladır üç tabutlu hökümdar.
Qızıl, gümüş, poladdandır tabutlar.

İç-içə qoydular bu tabutları,
Dedilər olmasın heç sübutları.

Bir adada dəfn olunmuş sərkərdə,

Belə söyləyirlər bunu hər yerdə.

Çayın yatağını dəyişmişdilər.

Qəbirin üstündən keçirmişdilər.

Bununla itmişdir onun məzarı.

Naməlum olmuşdu tamam azarı.

Zifaf gecəsində vəfat etmişdir.

Ağzından, burnundan çox qan getmişdir.

“Tanrının qamçısı" adını aldı.

Adını biryolluq tarixə saldı.

Bir ad da qoymuşdur Roma papası,

Demişdir: sənsən “Allahın cəzası”

Ay nənə!

Yuxumda haraya çağırdım səni,

Yenə də naümüd qoymadın məni.

Özün gəlməsən də gəldi xeyalın

Gözümə göründü o xoş camalın.

Elə bil dünyanı verdilər mənə,

Üz-üzə dayandım sənինlə yenə.

Gəldi qulağıma o həzin səsin,

Üzümə toxundu ilıq nəfəsin.

Gəlibsən yuxuma qonaq bu gecə.

Sevindim bilməz sən mən indi necə?

Əlimi atdım ki, tutam əlindən,

Adımı eşıdəm sənin dilindən.

Gördüm ki, yenə də sən yoxa çıxdın.

Mənim xəyalımı daha da yıxdın.

Sənin yeməklərin düşüb yadıma,

Nənəm qədər kimsə çatmır dadıma.

Anam göstərsə də nəvaziş mənə,

Ancaq öyrəşmişdim həmişə sənə.

Mən özüm olmuşam qoca bir nənə,

Ay nənə, sənlədir ürəyim yenə.

Ayırma bizdən!

Yalvarıb deyirəm mən yaradana.
Allahım, yardım et gözəl insana.

O, bizə qardaş yox, olubdu ata!
Kömək ol bugünkü əməliyyata.

Bu gün bir möcüzə bəxş elə bizə.
Ömürlük minnətdar olarıq sizə!

Allahım, tutmuşuq ətəyinizdən.
Nə olar, ayırma gəl onu bizdən!

Mən onun dolanım yenə başına.

Kömək ol, Allahım, bu qardaşıma.

Ey ulu tanrımız, tut əlimizdən.

Bizləri ayırma bir-birimizdən!

Ömrümdən kəs mənim,ömrünə cala.

Qıyma ki, bizlərdən o, ayrı qala.

Tut onun əlindən, ey gözəl Allah!

Yenə də biz sənə gətirdik pənah.

Ayırmadım səni qızdan...

Gözəl balam, çox gözəlsən,

Mənim üçün sən özəlsən.

Razıyam mən yaradandan,

Sən dünyaya gələn andan.

Ömrümə sən bir bəzəksən,

Vaxt gəlib bax, görəcəksən.

Ayırmadım səni qızdan,

Əskik olma qapımızdan!

Qoy həmişə bu əllərin,

İtsin içində güllərin...

Düşməyirsən bax, dillərdən.

Çox gözəlsən, sən güllərdən!

Hər şey sənlə nəfəs alır,

Qəm-kədərim dalda qalır.

Bax, həmişə sevincli ol!

Sevincinlə qəlbimə dol!

Qoy evimdən səsin gəlsin.

Gülüş səsin hey yüksəlsin.

Mən sevincli görüm səni,

Bax, sevindir sən də məni!

Azadlıq istərəm!

Gözlərim yoldadı, qulağım səsdə.
Ürəyim çırpınır sanki qəfəsdə.

Hər yerdə gözlərim axtarır səni.
Dərdlərə salıbdı sənsizlik məni.

Yollardan yığılmır mənim bu gözüm.
Bilmirəm, bu dərdə mən necə dözüm?

Bir düşün, fikirləş, ay bala, özün.
Düşdüyün bu hala heç varmı sözün?

Tikanlı məftillər ayırır bizi.
Kədərə bürüyür hər birimizi.

Bilmirəm nə deyim körpə balana.

Yalan söyləməkdən batdım yalana.

Kaş ki, sən gələydin dinə, imana.

Yazığın gəlmirmi sənin anana?

Axı heç bilmirəm nə deyim sənə?

Bütün zülümlərin dəyibdi mənə.

Ağlını top elə, oğul, başına.

Rəhm elə oğlunla, öz yoldaşına.

Əlimi qaldırıb göylərə yenə,

Azadlıq istərəm, ay bala, sənə.

Qapını qoy açsın, Allahım özü.

Yollardan yığılsın balanın gözü.

Fikirləş, bir düşün, əyrini, düzü.

Sevindir, qoy gülsün oğlunun üzü.

Babam!

Dünya sənlə gözəl olur.

Şənlik, sevinc evə dolur.

Ləzzətlidir hər şey sənlə.

Oynayırsan elə mənlə.

Gözləyirəm mən yolunu.

Boynuma sal, gəl qolunu.

Darıxıram, baba sənsiz.

Qalmayırsan çünki mənsiz.

Meylini salmısan mənə.

Çox bağlandım, mən də sənə.

Bu dünyaya dönsəm yenə.

Hədiyyə tək gəlləm sənə.

Doymaram mən heç dadından.

Fəxr edərəm hey adından.

Yaxşı ki, sən öz babamsan!

Mənim şirin söz babamsan!

Bacım

Mənim ağıllı bacım!

Yüksəkdə duran tacım!

Təbrik edirəm səni!

Sevindir hər an məni!

Bacım mənə əzizdir.

Qəlbi gül tək təmizdir.

O, körpə bir mələkdir!

Həm döyünən ürəkdir.

Hər gün qılar namazı.

Xoşdur onun avazı.

Arzulayıram azı,

Görsün yüz gözəl yazı!

Bala bilirəm

Gözəldir, yazdığın, həmin bu şeir!
Şair bu şeirdə gör nələr deyir?

Dediyin yolları mən də keçmişəm.
Gəlin bulağından sular içmişəm.

Hamı tək mənim də olub qaynanam.
Elə bil olmuşdu, vallah, öz anam.

Çox şeylər öyrəndim ondan həyatda.
Bütün xatirələr qalıbdı yadda.

Başıma dolandı xəstələndə mən,
“Mənə gəlsin,” dedi, “qoy sənə gələn”.

İllər söyləyibdir artıq sözünü.

Qaynana eyləyib indi özümü.

Gəlinnən olmayır işim heç zaman,

Gəlin də anlayır bunu çox güman.

Onunla ağlayıb, həm də gülürəm.

Mən onu özümə bala bilirəm.

Balamın balası

Hər zaman razıyam mən, Yaradandan,

Balamı bizlərə bəxş edən andan.

Düz otuz ildir ki, keçib üstündən.

Mənimçün olubdur elə bil dünən.

Balamın balası öz yanındadır.

Mənim coşan qanım damarındadır.

Baxıram mən onun qara gözünə,

Ağzından tökülən şirin sözünə.

Eynidi baxışlar, eynidi yeriş,

Yaradan balamı yenidən vermiş.

Gülüşü yayılır öz otağıma,

Yanağı toxunur bu dodağıma.

Basıram ürəklə tez qucağıma.

Xoş gəlib, şirinim öz ocağına

Heç zaman doymuram onun ətrindən,

Keçə də bilmirəm heç vaxt xətrindən.

Ürəklə qoxusun alıram hərdən.

Qoxusu qoy gəlsin bu ciyərlərdən.

Basıram bağrıma, ondan doymuram.

Onu qucağımdan yerə qoymuram.

Çünki elə bilir oğlunun, nənə,

Uşaqlığın tutub əlində yenə!

Balamın yarısan!

Gözəl gözlü mələyim!

Budur, sənə diləyim.

Yoldaşınla sən qoşa,

Həmişə xoşbəxt yaşa.

İki gözəl oğlun var.

İnşallah, xoşbəxt olar!

Gör onların toyunu.

Sev həmişə boyunu.

Çox ağıllı gəlinsən!

Ailəni qoru sən.

Sən balamın yarısan.

Qardaşımın barısan.

Həmişə gözəl oldun.

Nur tək evimə doldun.

Gəlin yox, qızımsan sən.

Çox sevirəm səni mən...

Bibim

Gözəldir, bibimin qara gözləri!
Bal kimi şirindir, dadlı sözləri.

Qızların içindən bax, onu görcək,
Görərsən yoxdur ki, onun tək göyçək.

Kəndin gözəlləri dünyada çoxdur!
İçində tək bircə bibimdən yoxdur.

Bibimin həyətdə inəkləri var.
Onların südündən bütün kənd doyar.

Gözəldir, bax, onun bağı, bağçası,
İçində güllərdən vardır xonçası.

Mən gözəl bibimə qonaq olmuşam,

Bayramda onunla birgə qalmışam.

Bişirdi mənimçün dadlı yeməklər.

Mənə sərf elədi gözəl əməklər.

Mən onu çox sevdim öz anam qədər,

Heç zaman görməsin gül üzü kədər.

Bir aləmsən!

Mənim gözəl Siranəm.

Bir aləmsən, bir aləm!

Xoş gəlmisən cahana.

Əhsən bu Yaradana!

Bəxş edib səni bizə.

Gözəllik verib sizə.

Sən mələyin özüsən!

Nur süzülən gözüsən!

Bütün gözəllik səndə.

Nə qədər yazsam mən də,

Deyirəm dönə-dönə,

Gözəlsən, bacı yenə!

Sağ olsun yaradanı.

Yaradıb sən tək canı.

Deyirəm, ay Siranəm,

Bir aləmsən, bir aləm!

Bizim babamız!

Novruz Əliyevə

Novruz Əliyevdir bizim babamız,
Onunla fəxr edir bütün dünyamız!

Həmişə o, məsul işdə çalışmış,
Əməyə, zəhmətə möhkəm alışmış.

Böyütmüş babamız yeddi övladı,
Dillərə düşmüşdü o gözəl adı.

Həkimi, polisi, səfiri vardır.
Dövlətə xeyirli bax, övladlardır.

Bu gözəl babamız istıqanlıdır.

Həmişə dəyərli, qohum canlıdır.

Hər zaman əl tutub kimsəsizlərə,

Bax, örnək olubdu hər an bizlərə.

Çinar tək qamətli, çox şux olubdur.

Baharda doğulub, yaz da solubdur.

Babamın qırx səkkiz baharı vardır.

Yaşasa bax indi yüz beş olardı!

Yüz beş yaşı onun bu gün tamamdır.

Xalqına dəyəri olan insandır.

Novruzun töhfəsi olan babamız!

Minnətdar olmuşuq sənə hamımız.

Qoy sənin bu yaşın mübarək olsun!

Gözəl örnəklərin qəlblərə dolsun!

Həmişə yadlarda yaşayan baba,

Sən layiq olmusan səndəki ada.

Çox sevdik biz səni dünyalar qədər,

Zəhmətin heç zaman getməyib hədər.

Həmişə qəlblərdə yaşar babamız,

Ruhuna baş əyir bütün dünyamız.

Bu dünya heç düzəlməyir!

Baxıram sağıma, həm də soluma,
Düzəlib gedirəm yenə yoluma.

Görürəm, bu dünya heç düzəlməyir.
Həyatı tərk edən geri gəlməyir.

Mən gördüm dünyanın iki üzünü,
Hər zaman deyirəm sözün düzünü.

Quyuya töksən də nə qədər suyu,
Gördüm söyləməyir heç zaman quyu.

Bu dünya bir çaydır həmişə axır,
Hamı pəncərədən ancaq ki, baxır.

Dünya belə gəlir, belə də gedir.

Hər kəs öz bildiyi işləri edir.

Sadəcə mövcuddur yaxşi, yamanlıq.

Yadlara həkk olur gözəl insanlıq.

Heç zaman çıxmayır pisliklər yaddan.

Gözəl şey olmayıb bir təmiz addan!

Hər insan qazanır bunları özü.

Tarixə yazılır əməli, sözü!

Bütün gözəlliklər verilib sənə...

İnsanı yaradır gözəl yaradan,
Ona nəfəs verir yaratdığı an.

Bəxş edir onlara ürəyi, qanı.
Paylayır hamıya bir şirin canı.

Qəlbin gözəlliyi olmayır eyni,
İnsanın özünü yorsa da beyni.

Deyirəm həmişə mən dönə-dönə,
Bütün gözəlliklər verilib sənə.

Allahın xoş olan bəndəsiyik biz,
Sənինlə şənlənir ata evimiz.

Aləmə nur yağır gözəl üzündən,

Yaradan zövq alır sənin özündən.

Sən bizim mehriban mələyimizsən!

Həmişə, hər zaman gərəyimizsən!

Müsbət keyfiyyətlər cəmləşib səndə.

Fəxr etdim gözəlim, sənlə mən də.

Canımsan

Dünyanın ən gözəl nemətisən sən!
Hər zaman sənlə fəxr elədim mən.

Gündüzlər günəşim, gecə ayımsan.
Yaradan göndərən gözəl payımsan.

Aləmə nur salır sənin gözlərin.
Qəlbləri oxşayır şirin sözlərin.

Döyünən ürəyim, görən gözümsən.
Sevdiyim ətirli gülüm özünsən.

Sən mənim həyatım, şirin canımsan.
Bədənimdə axan qaynar qanımsan.

Gözəlim, dövlətim, mülküm, varımsan.

Dünyada mələk tək gözəl xanımsan!

Yaxşı ki, Yaradan bəxş edib səni.

Çox xoşbəxt eyləyib bununla məni.

Bütün arzuların gül kimi açsın.

Hər zaman üzündən təbəssüm saçsın.

Çay istəyirsənmi kişi?

Sən namaza oyanırsan.

Evləri nə dolanırsan?

Gözüm olur yenə səndə.

Nə görmüsən axı məndə?

Görürsən ki, oldum şəkil.

Adam olmur şəkildən bil.

Evdə gəzir dolanırsan.

Hər an məni sən anırsan.

Çıxmayıbsan bir sözümdən.

Hey soruşardın özümdən.

Çay istəyirsənmi, kişi!

Vacib bilərdin bu işi.

Adət qalıb yenə səndə.

Ancaq nəfəs yoxdu məndə.

Ağlayırsan, dolanırsan.

Axı niyə inanmırsan?

Özümdəndir daha çayım.

Daşa dönüb indi payım.

Sən narahat olma mənə.

Çay içmirəm, deyim sənə.

Çox çətindir həyat sənsiz!

Dünya, aləm qan ağlayır.
Göz yaşları lap çağlayır.
Övladının ah, naləsi,
Ürəkləri çox dağlayır.

Nə tez doydun bu dünyadan?
Üz döndərdik biz bu aydan.
Səni bizdən alıb getdi.
Necə dözsün buna Aydan?

Nalə çəkib ağlayır qız.
Sənsiz olub indi yalqız.
Əl çəkmədi heç yaxandan,
Əcəl oldu sənə saqqız.

Yapışdı düz ürəyindən.

Qopmadı heç kürəyindən.

Səni alan Əzrayılın,

Ox bataydı ciyərindən.

Sənsiz boşdu bütün cahan.

Boş görünür yerin hər an.

Çox çətindir həyat sənsiz.

Dözəcəkmi atan, anan?

Çox şükür ki,biznən varsan

Altmış illik baharın var.

Düz əhdin, düz ilqarın var.

Alnı açıq, üzü ağsan.

Nə yaxşı ki, biznən varsan!

Bilməmisən gecə, gündüz.

Çətinliklə sən üzbəüz.

Hey qurmusan, yaratmısan.

Binaları ucaltmısan.

Binalarla şəhər saldın.

"El atası" adın aldın.

Sahib oldun bu dünyada,

Layiq olduğun o ada.

Qalxdın elmin zirvəsinə,

Professor rütbəsinə.

Yeddi gözəl xəzinən var!

Çox sevirlər səni onlar.

Altmış olur indi yaşın,

Dəyişməyib gözün, qaşın.

Əvvəlki tək sən cavansan.

Çox şükür, bizimlə varsan!

Dağ kimi dayanıb!

Hamıya əzizdir öz doğmaları,

Qohumdur insanın dövləti, varı!

Bax, var da, dövlət də gəldi-gedərdi,

Yadlara çəkilən zəhmət hədərdi.

Qohumlar dalında var bir dağımız,

Ürəkdən sevirik onu hamımız!

Hüseynov Caviddir bu igid oğlan!

Dağ kimi dayanıb arxada inan!

Dağı dağ üstünə qoyar hər zaman!

Qohumla döyünür ürəyi hər an.

Çox deyil, bax, azdır Cavidin yaşı,

Buna baxmayaraq, ağarıb başı.

Ananın, bacının sirr yoldaşıdır.

Hamının çox gözəl, mərd qardasıdır.

Bütün kasıblara o, əl tutandır,

Vəfalı, səmimi, çox mehribandır.

Əsli Qılıcdandır, bax, onun özü,

Daşdan da keçəndir, hər incə sözü.

Dağıl dünya!

Dağıl dünya, belə qalma.

Bacımızı bizdən alma.

Nədir bizim günahımız?

Tutar səni bu ahımız.

O bacısız biz yanarıq.

Gecə, gündüz odlanarıq.

Görməyibdi övlad barı.

Doymayıbdı ondan yarı.

Yarı yoldan aldın onu.

Həyatının gəldi sonu.

Dünya, aləm bizə dardı.

Əcəl səni tez apardı.

Əsdi yellər, qopdu tufan.

Sənsizlikdi indi bu an.

Yalvarırıq sənə oyan.

Yarınla gəl qoşa dayan.

Çox ağlayır balaların.

Sənsiz qalıb indi yarın.

Dağıl dünya, belə qalma.

İnsanları bizdən alma.

Darıxıram, ana, sənsiz!

Axtarıram düz-dünyanı,
Görüm mənim anam hanı?

Anam gedib evimizdən,
İncidimi, görən, bizdən?

Gözüm gəzir hər bir yanı,
Qanımızda vardır qanı!

İsinərdim qucağında,
Rahat idim ocağında.

Mən keçirəm otağıma,
Səsi gəlir qulağıma.

Görmək üçün dayanıram.

Ətrafıma boylanıram.

Ancaq mənim anam yoxdu.

Dərd, azarım indi çoxdur.

Dərd ortağım, sirr yoldaşım,

Ağrısaydı mənim başım,

Quş olardı, o uçardı.

Tez yanıma o qaçardı.

Evdə yeri boş qalıbdı.

Məzarlıqda yurd salıbdı.

Ora gedib, köçüb bizdən.

Aralanıb evimizdən.

Könlüm istər hey anamı,

Əvəz olmaz bu sonamı.

Anam qalıb şəkillərdə,

Şəkil gəzir çox əllərdə.

Bayramlarda mən gedirəm,

Baş daşını seyr edirəm.

Gözüm baxır gözlərinə,

Həsrət qaldım sözlərinə.

Gözləyirəm, o tərpənmir.

Səsləyirəm, heç dillənmır.

Sığal çəkmir heç başıma,

Yaxınlaşıb mən daşına.

Yalvarıram, ana, sənə,

Sığal çək, başıma yenə.

Darıxıram necə sənsiz.

Darıxmırsan sən də mənsiz?

Gəlmişəm mən, bax, minnətə,

Saldın məni çox zillətə.

Dön gəl daha evimizə.

Sığal çək sən yenə bizə.

Tərsinədir indi daha,

Yalvarıram mən Allaha.

Əl atıram baş daşına,

Sığal vurum mən başına.

Daşın laldır, heç dillənmir,

Bircə telin də yellənmir.

Mən baxıram düz gözünə.

Danışıram öz-özümə.

Darıxıram, ana sənsiz.

Səninləyik həmişə biz!

Dərdinə şərikik

Dərdinə şərikik gözəl, Qəmərim!
Mən yaza bilmirəm, titrəyir əlim.

Tək sən yox, itirdi onu nəslimiz.
Adillə həmişə fəxr edərdik biz.

İndi gözümüzdən yaşlar süzülür.
Yanaqda sıraynan bir-bir düzülür.

Kaş, əldə olaydı bir imkanımız,
Qoymazdıq ayrılsın bizdən canımız.

O, nəslin ürəyi, görən gözüydü.
Qəlblərə yol tapan onun özüydü.

Əzrayıl dağ çəkdi kürəyimizə.

Xəncəri o soxdu ürəyimizə.

Nəslin paçalandı bu gün ürəyi.

Zəhərə dönmüşdü çayı, çörəyi.

Sənin harayına hay verir hamı.

Unutmaq olarmı belə adamı?

Çox erkən ayrıldı o, aramızdan.

Ömürlük qan gələr bu yaramızdan.

Yaradan yazıbdı ona qədəri.

Heç zaman silinməz Adil kədəri!

Dərdlərin məlhəmisən!

Sən bizi dinləyən səssiz quyusan.

Dərdlərin məlhəmi, şirin suyusan.

Bu məlhəm yerləşir dərin quyuda.

Dərddən dalğalanır onun suyu da.

Hərdən alov kimi püskürürəm mən.

Alovu su ilə söndürürsən sən.

Əgər sən olmasan, bax, onu da bil.

Mən yanıb olmuşdum düz bir ovuc kül.

Kürəyim söykənib sənin çiyninə.

Heyranam işləyən gözəl beyninə.

Sən bizə anasan, həm də bacısan!

Yüksəkdə dayanan bir baş tacısan!

Zirvədə dayanıb baxırsan bizə.

Sən şərik olursan hər dərdimizə.

Bacım olduğunçün söyləmirəm mən.

Mələk tək xeyirxah bir insansan sən!

Dəryadır dayım!

Dəryadır, dənizdir mənim bu dayım!
Çatıbdı qızıldan qiymətli payım!

Məndən, ailəmdən sizə salamlar.
Nə qədər gözəldir burda kəlamlar!

Oxudum kitabı mən tamamladım,
Bu zaman doğrudan təmiz anladım.

Gördüm ki, hər sözün öz dəyəri var.
Bir sözün neçə cür mənası olar?

Dalğalı dənizə bənzətdim sizi.
Nə qədər feyziyab edibsiz bizi?

Dəniz tək coşubsuz, dalğalanıbsız,

Dostluğa, düzlüyə arxalanıbsız.

Bütün pisliklәri ifşa edibsiz.

Doğru yol göstərib, onnan gedibsiz.

Baş əyib mən sizə səcdə edirəm!

Çalışıb bu yolla mən də gedirəm!

Dəymə mənim qardaşıma

Dolanmışdım mən başına,
Dəymə, mənim qardaşıma!

Evimizin körpəsidır,
Hamımızın ərkəsidir.

Yer də, göy də qan ağladı.
Ürəyimiz dərd bağladı.

Zəhər tökmə sən aşıma.
Dəymə, mənim qardaşıma.

Qapıları vaxtsız döymə,
Heç özünü çox da öymə.

Verilsə də sənə əmir,

İnsandı bu, deyil dəmir!

Rəhm elə sən öz başına,

Dəymə, mənim qardaşıma!

Adın olub sənin əcəl,

Olma belə şıltaq, dəcəl.

Elə etmə, boğum səni,

Boğaza lap yığdın məni.

Sənə əcəl mən olacam,

Tutub səni mən boğacam!

Gözləyirəm indi, vallah,

Görək kimə verir Allah.

Baxmaram heç göz yaşına,

Dəymə, mənim qardaşıma.

Dönmədi geri

Nə idi başına gəldi, ay bacı?
Allahım yaşatdı sənə bir acı.

Əzrayıl qonağın oldu qəfildən.
Bilmədin, başına heç nə gəldi sən.

Evində püskürdü alovlu vulkan.
Ərini əlindən aldı həmin an.

Qışqırdın, yalvardın dönmədi geri.
Dedilər, vəfasız olubdu əri.

Səni istəyirdi dünyalar qədər.
Niyə verdi indi bu qədər kədər?

Son geçə o, oldu sənin qonağın.

Adamla dolmuşdu bütün otağın.

Bir geçə hey onu sən sığalladın.

Uşaqlar ağladı, özün ağladın.

Heç zaman qıymazdı o, ağlayasan.

Başına qaranı sən bağlayasan.

Ancaq o, nə dindi, nə də danışdı.

Nə də ki, dediyin sözə qarışdı.

Bütün şikayəti eylədin ona.

Artıq yetişmişdi həyatı sona.

Dostlar

Sevirəm oğlumu dünyalar qədər,
Çəkdiyim zəhmətim getməyib hədər.

Ağıllı balamdır, həm də mehriban.
Ürəyi mənlədir onun hər zaman.

Özü tək ağıllı dostları vardır.
Ən yaxın dostları Cavid, İlqardır.

Dostluğa sadiqdi, onların özü,
Həmişə bir olur söhbəti, sözü.

Onlar bir-birinə yaxın köməkdir.
Allahım, dost olmaq, gör, nə deməkdir?!

Hər zaman göyünür bir ürəkləri,

Yaradan özüdür, bax köməkləri!

Onların çox gözəl xanımları var.

Həmişə onlar da birlikdə olar.

Aygündür, Günaydır, bir də Səbinə.

Sadiqdir onlar da bir-birlərinə.

Birlikdə olurlar onlar çox zaman,

Heç gözə gəlməsin onlar ay aman!

Qoy uzaq olsunlar gözdən, nəzərdən,

Mən baxım onlara, sevinim hərdən!

Döyünən ürəyimsən

Güllərdən gözəlsən, həm ətirlisən.
Güllərin içindən səni seçdim mən.

Heç doya bilmirəm sənin ətrindən.
Nə keçə, bilirəm, şirin xətrindən.

Evimin gülüsən, həm çiçəyisən.
Nənənin nəğməkar bir mələyisən.

Bülbül tək ötürsən güllü bağımda.
Ağappaq qarımsan yüksək dağımda.

Dağların zirvəsi yerindi sənin.
Gözünün nurusan sən öz nənənin.

Hamıdan çox sevir nənən özünü.

Ulduz tək parlayan qara gözünü.

Sən mənim döyünən bir ürəyimsən.

Həmişə özümün bil, gərəyimsən.

Gülayım, xoş gəldin bu dünyaya sən.

Hər zaman sənինlə fəxr elədim mən.

Dünya fani bir dünyadır

Gəz dünyanı, bu cahanı.

Heç unutma Yaradanı.

Sən fikir ver öz canına.

Minnətdar ol hər anına.

Bu dünyaya bel bağlama.

Boş şeylərə gəl ağlama.

Çünki qısa olur ömür.

Bu nökərdir, şahdır demir.

Bil qədrini hər bir anın.

Sağlam olsun bircə canın.

Onsuz dünya çox fanidir.

Əzrayıllar bir canidir.

Olmayır heç vicdanları,

Sonda alır o canları.

İstər xan ol, istər vəzir!

Əzrayılın sənlə gəzir.

Ömür boyu sənnən qalır.

Əvvəl, axır canın alır.

Sonda evin məzar olur.

Sürsümüklə içi dolur.

Dünya, qaynar bir qazansan!

Dünya, nədən oldun fani?
İnsanların nankor, cani.

Yaratdığın cürbəcürdür.
İnsanların gör nə cürdür?

Hörmət edib bəsləyirsən,
Canından çox istəyirsən.

Bilmək olmur iç üzünü.
Yumsan əgər sən gözünü,

Pusqudakı düşmənindir.
Sənə ancaq o qənimdir.

Dünya, qaynar bir qazansan!

Atəşlərdə hər gün yansan.

Heç bir şeydən qorxmur gözün.

Qəddar oldun, nədən özün?

Vardır sənin neçə üzün?

Hərdən görmür sanki gözün.

Vay o haldan itsin əmək,

Günahkarı sənsən demək!

Nədən oldun bir məngənə?

Sıxdın məni özün yenə.

Aldadıbsan qərinələr,

Səndən gəlib keçib nələr?

Dünyamız

Qəribə dünyadı, bizim dünyamız.
Qonağıq burada, baxın, hamımız.

Hərə bir şəkildə gəlir dünyaya.
Kimisi gözəldi, bənzəyir aya.

Bəzisi çirkindi, oxşayır ata.
Çirkinlər istəyir gözələ çata.

Hamı bəhs eyləyir biri-birindən.
Əzrayıl ortaya atlanır birdən.

Kimini həyatdan vaxtsız aparır.
Sevimli dünyadan tezcə qoparır.

Kimi varlı olur, kimi də kasıb.

Sonunda Əzrayıl qəbirə basıb.

Hərəni bir yolla həyatdan alır.

Hər evə cürbəcür vəl-vələ salır.

Sonunda dünyamız dolur, boşalır.

Əzrayıl həmişə işində qalır.

Dünyanın şahısan

Dünyanın şahısan, gözəl qardaşım,
Hər zaman dayağım, canım, sirdaşım.

Həmişə sən mənim qayğıma qaldın.
Çəkilməz yükümü boynuna aldın.

Övladtək böyütdün sən hamımızı.
Qoymadın qaralsın hec qanımızı.

Allah da qoy tutsun yüksəkdə səni.
Yenə də sevindir səni görəni.

Qəlbin bir aynadır, ləkəsiz, təmiz.
Sənինlə sevindik, fəxr elədik biz.

Bizimlə bir vurur, gözəl ürəyin.

Saf olur hər zaman arzu, diləyin.

Qardaş yox, sən bizə ata olmusan!

Bizləri böyüdüb, yaşa dolmusan.

Sən görən gözümsən, ucalan başım.

Ad günün mübarək, atam-qardaşım!

Dursun!

Fədəkar anasan, həm də ki, nənə.
Bütün gözəlliklər yaraşır sənə.

Bizlərə bəxş edib səni Yaradan.
Doyarmı uşaqlar sən tək anadan.

Qəlbləri oxşayan nazlı mələksən.
Saçları bəzəyən incə çələngsən.

Ətirli bir gülə bənzərsən özün.
Sanki piyalədir o gözəl gözün.

Hörmətin keçibdi sənin hamıya.
İstərdim hər bir kəs səni tanıya.

Qoy bilsin elimiz, bütün obamız.

Ürəkdən sevirik səni hamımız.

Yaşının üstünə yaş gəldi yenə.

Allahdan xoşbəxtlik dilərik sənə.

İlləri birlikdə biz verdik yola.

Bu dünya durduqca, Dursun da ola!

Əbədi yaşarsan

Cümşüdə

Deyirsən, xoş olub sənlə baharım,
Məni yolda qoyan günahkar, yarım.

Gör neçə illərin yol yolçusuyuq,
Gördüyüm günlərin biz ovçusuyuq.

Payızım qızılı, günüm xoş olub.
Sənsiz həyat mənə tamam boş olub.

Yayın istisində birgə isindik,
Birlikdə ağladıq, birgə sevindik.

Deyirəm, həmişə mən həqiqəti,

Yollarda buraxdın sən Məlahəti.

Qışın nə olduğun, bax, görməmişəm,

Çünki hənirtinə mən isinmişəm.

Bir ilıq nəfəsin mənə yetərdi,

Sənsizlik ölümdən mənə betərdi.

Gəzirdim hər yanı, sənin özünlə,

Hər seyi görürdüm, sənin gözünlə.

Geriyə dönəydi, sənli günlərim,

Əlində olaydı, yenə əllərim.

Sənsiz mən həyatdan tamam küsmüşəm,

Xoşbəxt günlərdən əlimi üzmüşəm!

Sənsiz, bax, deyirəm düzünü, inan,

Mənimlə birlikdə olmayan zaman.

Qışın şaxtası yox, yayın istisi,

Yayda alovlanan tonqal tüstüsü.

İsitmək yerinə məni dondurar,

Sənsiz olmağımı mənə qandırar.

Sənin yoxluğuna dözə bilmirəm,

Mən sənsiz danışıb, nə də gülmürəm.

Bircə şey bilirəm mən bu həyatda,

Əbədiyaşar tək qalıbsan yadda!

Elm adamı

Hamıya əzizdir, doğma vətəni,
Aləmlə bir olur onu sevəni.

Vətən yetişdirib gözəl övladlar.
Dünyada məhşurdu bu istedadlar.

Məmməd Əliyevdi onlardan biri.
Olub ölkəmizin fəal səfiri.

Təmsil eyləyibdi vətənimizi,
Dünyaya tanıdıb xaricdə bizi.

Zirvəyə qalxıbdır öz savadıyla.
Xalqımız fəxr edir onun adıyla.

Görkəmli alimdir, tanıyır hamı,

Məhşurdu hər yerdə bu elm adamı.

Çalışıb professor adı alıbdı.

Elmin zirvəsinə bir yol salıbdı.

Ulduztək parlayır o, zirvələrdə.

Tanıyır insanlar onu hər yerdə!

Elmdə ağarıb o alimin başı.

Yetmiş beş olacaq bu il də yaşı.

Biz onu ürəkdən təbrik edirik!

Elimdə saldığı yolla gedirik.

Əlvida söyləyir mənə cavanlıq...

Güzgünün önündə durdum bir anlıq.
Gözümə göründü yenə cavanlıq.

Bir yanda cavanlıq, bir yan ahıllıq!
Məndə də varıymış yaman paxıllıq.

Allahım, qalmışam mən ki arada,
Təbibi axtarım indi harada?

Cavanlıq bənzəyir dumana, çənə,
Əlvida deməyə gəlibdi mənə.

Çünkü çox az qalıb onun dövranı,
Məcburdu getməyə, gəlib zamanı.

Həsrətlə baxıram onun dalından,

Yenicə ayrıldım axı yanından.

Qocalıq açıbdı öz qucağını.

Mənimcün isidib od, ocağını.

Üzümə baxaraq qımışıb yenə,

Ürəklə söyləyir qocalıq mənə.

Haraya getsən də, gizlənsən də sən,

Nəhayət, qənimin olacağam mən.

Məndən qorxmağın da heç yeri deyil,

Hamının nəsibi olmayıram, bil!

Ən gözəl rəssam

Ən gözəl rəssamdır, Yaradan özü.
Sanki tərəzidi həm də ki, gözü.

Yaradıb ən gözəl şah əsərləri.
Qızıldan qiymətli olan əlləri.

Nə qədər gözəldi, bütün çiçəklər.
Bir-bir düzülübdü, xırda ləçəklər.

Üstəlik, güllərə veribdi qoxu.
Məst edir adamı güllərin çoxu.

Güllərin şahıdı gözəl qızılgül
Məcnuna dönübdü eşqindən bülbül.

Hələ bir bülbülün özünə bax sən.

Nə qədər gözəllik onda görərsən.

Hər yerdə yüksəlir möhtəşəm dağlar.

Görünür olduqca onlar füsünkar.

Hamsını yaradıb gözəl Yaradan.

Çox gözəl görünür bunlar da hər an.

Əsgər gedirəm

Ağlama, anacan əsgər gedirəm,

Mən qürur duyuram, çox fəxr edirəm!

Vətəni qorumaq borcumdu mənim.

Hücuma kecibdi, zalım düşmənim.

Mənim tək əsgəri böyütmüsən sən.

Yolumu gözləyir, dardadır vətən.

Vətənin yolunda verrəm çanımı,

Halal eyləyərəm ona qanımı!

Anacan, üzülmə, gedirəm əsgər,

Geriyə dönməsəm bir daha əgər.

Baxma sən heç zaman tökülən qana.

Məğrur ol həmişə, ağlama, ana.

Dardadır vətənim, eyləyir fəryad,

İnləyib bizlərdən istəyir imdad.

Qoymarıq tapdansın öz torpağımız,

Yüksəkdə dayansın qoy bayrağımız!

Fəxr elə, anacan böyütdün məni!

Məğlub eyləyərik indi düşməni!

Lazımdır vətənə igid əsgərlər,

Zəfər qazanaraq geri dönərlər!

Əsgər

Əsgərdir vətənin əsas dayağı,

Səmada yellənir onun bayrağı.

Üçrəngli bayrağı tutur əlində.

Baş əyir həmişə onun önündə.

Xofunla lərzəyə salır cahanı,

Mərdliklə qoruyur Azərbaycanı!

Düşmənin bağrını yarandır, əsgər,

Onlara zərbələr vurandır, əsgər!

Döyüşə hazırdır onlar hər zaman,

Düşmənə verməzlər heç bir vaxt aman.

Vətənçün keçirlər şirin canından.

Torpaq da sulanır onun qanından.

Gül kimi bir anda onlar solurlar,

Bir göz qırpımında şəhid olurlar.

Onlar da dadırlar həmin bu dadı,

Tarixə yazılır əsgərin adı.

Çox mərddir, igiddir, əsgərlərimiz!

Onların hamısı - ürəklərimiz.

Sülhün keşiyində durandı, əsgər,

Əmin-amanlığı qurandı, əsgər!

Eşşək özünü at bilir...

Günlərin birində eşşək oyanır.
Güzgünün önündə gəlib dayanır.

Özünü at kimi görür güzgüdə.
Bu işə mat qalır onun özü də.

Güzgünün önündə gəzir, dolanır.
Doğurdan özü də buna inanır.

Ağzını o yumur, açır qəfildən,
İstəyir at kimi kişnəsin birdən.

Nə qədər məşq edir alınmır bu iş.
Çünki anqırmağa eyləmiş vərdiş.

Birdən güzgüdəki at gəlir dilə,

Deyirəm, ay eşşək, sən belə elə.

Bəlkə, bax, yumasan indi gözünü.

Eşşəktək biləsən, yenə özünü.

Nahaqdan anqırma, səsini batır.

Uzaqbaşı səndən doğular qatır.

Bunu da deyirəm, bax, sənə, inan.

Eşşəkdən at olmur, vallah, heç zaman.

Ay eşşək, özünü oxşatma mənə.

Eşşəksən ki, eşşək deyirlər sənə.

Eşşək yaxşıdı!

Aləm nura boyanır.

Bir gün eşşək oyanır.

Baxır o yan-bu yana.

Deyir, dönüm insana.

Gəzim çölü, çəməni.

Qızlar bir görsün məni.

Yəqin bəyənəcəklər.

Mənlə evlənəcəklər.

Guya kimdi ki, insan?

Eşşəklik edir hər an.

Söhbət eyləyən zaman.

Bizdən möhkəm anqıran,

Bax, onların özüdür.

Gözü eşşək gözüdür.

İstəyirlər həmişə,

Onlar bizə girişə.

Adam, adama deyir,

Lap eşşək kimi yeyir.

Onlar istər hər zaman,

Bizə oxşasın inan.

Görübsənmi kim bir an,

Eşşəyə desin insan?

Düşünüb, daşınıram.

Hərdən lap qaşınıram.

Ora-bura gedirəm.

Sual-cavab edirəm.

Eşşək də olsam, özüm,

İnsanlara var sözüm.

Nədən onlar hər zaman,

Əl çəkmir bizdən inan?

Eşşək deyib, dururlar.

Hey bizə göz vururlar.

Əgər mənəmsə eşşək.

Sən eşşəklərdən əl çək!

Eşşəkdən də pissən sən!

Adını çəkmirəm mən.

Yüz dəfə dedim sənə,

İnsan demirlər mənə.

Ancaq, ay insan, sənə,

Eşşək deyirlər yenə.

Eşşəkdən pissən bu an.

Sənin kimi insandan.

Eşşək yaxşıdı inan!

Eşşəkdən aslan olmaz!

Eşşək gəzir şəhəri,

Belində də yəhəri.

Dolanır hər bir yanı.

Gəzmək istəyir canı.

Baxır o yan-bu yana.

Rast gəlir bir aslana.

Görür o, qəfəsdədi,

Qulaqları səsdədi.

Boylanır çox kədərlə,

Razılaşıb qədərlə.

Eşşək bunları görcək,

Hədsiz olur sevincək.

Aləmi tezcə qatır.

Başlayır şıllaq atır.

Dönüb baxır aslana,

Deyir, qal yana-yana.

Azadlığın bitibdi.

Şahlığın itibdi.

İndi şah mənəm, mən!

Bax görüm nə deyirsən?

Qurban olum Allaha.

Arzuma çatdım daha.

Eşidib Allah məni.

Taxtından salıb səni.

Gözləyirdim bu günü.

Edəcəm toy-düyünü.

İndi eşşək ol özün.

Mən aslana de sözün!

Dəyişək yerimizi.

Tanımaz heç kəs bizi.

Aslan baxır qəfəsdən.

Söyləyir uca səsdən.

Ey Allahın heyvanı,

Gəl unutma bu anı.

İstəyirsən şıllaq at,

Bu dünyanı yenə qat.

Yaxşı bilir yaradan,

Kimi yaradıb aslan.

Doğru deyirəm inan,

Sən olammazsan aslan.

Mən deyirəm bunu, bil,

Aslanlıq sənlik deyil.

İstəyir gəlsin dədən,

Səni belə söylədən.

Qəfəsdəki halımdı.

İndiki əhvalımdı.

Eşşəkdən olmur adam!

Tənha bir eşşək varmış.

Evində tək yaşarmış.

Bir gün gəzir ormanı.

Sıxılır onun canı.

O deyinə-deyinə,

Gedir qızı evinə.

Qızına deyir, bala.

Ölürəm mən, az qala.

Çoxdan görmürəm səni.

Təklik çox sıxır məni.

Deyirəm ki, bəlkə sən,

Mənə uşaq verəsən.

Başımı onla qatam.

Günləri dala atam.

Anan qurban gözünə!

Sən bələdsən özümə.

Tərbiyə verdim sənə.

Əhsən dedilər mənə.

Öymürəm mən özümü.

Düz deyirəm sözümü.

Eşitmədim heç zaman,

Desinlər ki, bax, anan.

Eşşək böyüdüb səni.

Xar etmədin heç məni.

Necə böyütdüm səni,

Eləcə də körpəni.

Böyüdərəm mən özüm.

Üstündə olar gözüm.

Qız deyir, nə deyim mən?

Öz nəvəndir, böyüt sən.

Eşşək sevinir yaman.

Sevincindən o, inan.

Boylanır ora-bura.

Az qalır lap anqıra.

Güclə tutur özünü.

Yumub, açır gözünü.

Birdən səslənir nənə,

Soyuqdur, bala sənə.

Qoy başına papağı.

Tərk eləyək otağı.

Qız çəkilir bir yana.

Anqırma deyir, ana.

Kişidir, balam kişi.

Özü bilir hər işi.

Duruxur ana bir az.

Deyir ki, belə olmaz.

Görübsənmi, bala sən,

Sevincdən anqıram mən?

Eşşək olsa da anan.

Yersiz anqırmaz, inan.

Fəxr eləyirdim ki, mən.

Adam tək böyüdün sən.

Nə qədər yanlış imiş?

Eşşək elə eşşəkmiş!

Dəyişsə də “fasonu”,

Eşşək bilirlər onu.

Günah məndədi, bala.

Anan qalıb çox dala.

Eşşəkdən olmur adam.

Səhvmi deyirəm, qadam?

Ətirli bir güldür Ömər!

Mən bir gözəl bağ salmışam.

Bağımdan ləzzət almışam.

Bu bağda var yeddi çiçək.

Çiçəklərin hamsı göyçək.

Körpə olur yaman dadlı.

Onun biri Ömər adlı.

Ətirli bir güldür Ömər!

Onda vardı böyük hünər!

Gülüm görüb altı bahar.

Bu bağçada öz yeri var.

Ətri basıb bağ-bağçanı.

Bəs gülümün tayı hanı?

Yaradanın əziz payı!

Yoxdu Ömərimin tayı.

Nənəsinin o, gülüdü.

Həm də bağın bülbülüdü.

Yüksəklərdən gəlsin səsi!

Gül qoxusun qoy nəfəsi!

Mənim balam, sağlam yaşa!

Ailənlə birgə, qoşa.

Ey gözəl xanım

Gözümün nurusan, başımın tacı.

Görəsən, heç varmı sənin tək bacı?

Sən çiyin-çiyinə olmusan mənlə.

Həmişə fəxr etdim, gözəlim, sənlə.

Gözəllər gözəli, ey gözəl xanım!

Canına bağlıdı hər zaman canım.

Sənlə bir vurur coşan ürəyim.

Həmişə olursan mənim gərəyim.

Biz yola salmışıq birgə illəri.

Nə gözəl yazmısan sən əsərləri?

Mənası dolğundu bu əsərlərin.

Var olsun onları yazan əllərin!

Təbriklər gözəlim, öpürəm səni.

Sevindir həmişə işinlə məni.

Hamımız birlikdə yığılaq deyək.

İlin də, yaşın da olsun mübarək!

Fərqanəmsən

Sən şirinsən, bal kimi,
Gözəl bir göz həkimi.

Həm anam, həm bacımsan!
Başımdakı tacımsan.

Bax, mənim bir dənəmsən,
Sən gözəl Fərqanəmsən!

Sinəmdə qürurumsan,
Mənim öz uğurumsan.

Hər dərdimə qalansan.
Anan üçün yanansan.

Sən özün bax, anasan,
Öz evində sonasan!

Sən mənim ürəyimsən!
Həmişə gərəyimsən.

Mənim üçün körpəsən,
Çox gözəl Fərqanəsən!

Gözəllərin gözüsən.
Həyatımın özüsən.

Suyumsan, çörəyimsən!
Həmişə köməyimsən!

Bu ayın on səkkizi,
Sehirləyirsən bizi.

Çünki həmin gündə sən,
Bu dünyaya gəlmisən.

Sevindirdin hamını,
Sən qoru öz çanını.

Otuz üç baharlısan,
Həmişə nübarlısan.

Anan qurban yaşına,
Kirpiyinə, qaşına.

Bağrıma basdım səni,
Hər an sevindir məni.

Gəlibdi nə zəmanə!

Ey Adəm oğlu insan.

Fikirləş düşün hər an.

Gör gəlib nə zəmanə?

Artıb dəli-divanə.

Bazardan nə alırsan,

Hamsına mat qalırsan.

Dişləyirsən meyvəni.

Heyrətləndirir səni.

Çünki dadlar dəyişib.

Bütün meyvələr şişib.

Düşünürəm ki, hərdən,

Biz görmüşük qədimdən.

Xiyar, qarpızın tağı,

Qucaqlayar torpağı.

Bax, Allahın işinə,

Zamanın gedişinə,

Onlar da yerdə durmur.

Torpağa heç üz vurmur.

Bəyənmirlər torpağı.

Dırmalayır çardağı.

Çardaqda düzüm-düzüm,

Sallanardı hər üzüm.

Üzümlərin yerindən,

Çardağın hündüründən.

Yerə baxıb sallanan,

Xiyar, qarpızdı inan!

Get evinə!

Nə girmisən o məkana?

Vardı səni doğan ana.

Üzmə onun ürəyini.

Gəl, evdə ye çörəyini.

Neynəyirsən o dar yerdə?

Ora girmə heç vaxt bir də.

Süfrə salıb, masa qurdun.

Niyə gedib orda durdun?

Sən şərabda boğularsan.

Nə yenidən doğularsan.

Bir dənədi çünki səndən.

Çıx, evə get sən yenidən.

Var özünün ev-eşiyin.

Oğlun yatan o beşiyin.

Gəl, masanı evində qur.

Uşağınla birlikdə dur.

Sevir səni öz ailən.

İstər şah ol, istər dilən.

Vallah, sənin qədrin bilən,

Ailəndir, bir də ki, mən!

Gəzəcəm sənli günlərimi

Ağırdı dərdimiz, həm kədərimiz.
Yarımçıq yazılmış bu qədərimiz.

Kaş dönə biləydik köhnə zamana.
Yoxluğun dəhşətdi indi insana.

Vəfasız deyildin heç zaman mənə.
Tapmıram, sözümü söyləyim sənə.

Məni qısqanardın güldən, çiçəkdən.
Saçımı oxşayan xəfif küləkdən.

Bəs nədən vəfasız oldun indi sən?
Xəbərin yoxdur ki, neynəyirəm mən.

Sən necə qıyırsan ağlamağıma?

Başıma qaralar bağlamağıma.

Bilmirəm, bəs niyə oldun insafsız?

Məndən tez ayrıldın, ay etibarsız.

Gəzəcəm o sənli günlərimi mən.

Nədən tərk eylədin axı məni sən?

Görüşünə gəldim özüm

Qırx gününü ötürmüşəm,

Sənə pənah gətirmişəm.

Görüşünə gəldim özüm.

Mən bu dərdə necə dözüm?

Gəldim özüm görəm səni,

Məyus etdin burda məni.

Danışdırdım, səs vermədin,

Sanki məni heç görmədin.

Minnət etdim sevə-sevə.

Dedim, burdan gedək evə.

Heç olmadı, bax, xəbərin,

Nədən küsdü can-ciyərim?

Səndən qabaq mən küsmüşəm.

Əllərimi lap üzmüşəm.

Bircə yolum qalıb demək.

Birdəfəlik küsüb getmək.

Gözəl mələyim

Sən ey Allahımın gözəl bəndəsi!

Məftun eyləyirsən görən hər kəsi.

Göylərdən yerlərə enən mələyim.

Səninlə döyünür hər an ürəyim.

Sən gəzsən, dolansan bütün dünyanı,

Canına bağlıdı ananın canı.

Qurbandır gözlərim sənin gözünə.

Allahım bəxş edib səni özümə.

Mənim gözəl balam, incə çiçəyim.

Qızların içində gözəl, göyçəyim!

Güllərin içində çiçəklən hər an.

Şəninlə fəxr etsin bu şair anan.

Gündüzlər günəşim, gecə ayımsan!

Allahım göndərən əziz payımsan!

Ömrümə nur salan gözəl mələyim!

Hər zaman qurbandı sənə ürəyim!

Gözəl payım

Həyatda olmadı öz doğma dayım,
Yaradan kəsmədi yenə də payım.

Sonunda göndərdi gözəl payımı.
Mənə bəxş eylədi İkram dayımı.

Üzümü mən tutub deyirəm sənə.
Dünyanın ən gözəl payısan mənə.

Aldım göndərdiyin salamlarını,
Eşitdim dediyin kəlamlarını.

Bilsəydin sevindim özüm nə qədər?
O üzün görməsin heç zaman kədər.

Qoy səsin ucalsın yüksəkliklərdən,

Sənlə fəxr edim eşidəndə mən.

Allahım həmişə yad etsin səni!

Bu gün sən nə qədər şad etdin məni.

O dağlar qoynunda çox xoşbəxt yaşa!

Dayı, bu bibimlə birlikdə qoşa!

Gözəlimin yaşıdı

Günəş tək nur saldın sən evimizə!
Gözəl bir səadət bəxş etdin bizə.

Şənlənib ev-eşik sənin səsinlə.
Hər tərəf isinib gül nəfəsinlə.

Şahısan gəlinin, həm də qızların.
Sənlə fəxr edir sevgili yarın!

Fədəkar anasan, sanki mələksən!
Sən bizə arxasan, həm də gərəksən!

Vəfalı yoldaşsan, ağıllı gəlin,
Ürəklə deyirəm insanlar, bilin.

Mənim gözəlimin bu gün yaşıdı!

Oğlum bir üzükdü, o da qaşıdı.

Gözəlim evimi işıqlandırır.

Dostu sevindirib, düşmən yandırır.

Qoy nura bələsin o, evimizi!

Göylərə qaldırsın hər birimizi!

Gözəl bayramdır!

Ən gözəl bayramdır bu bayramımız!

Həvəslə gözləyir qadınlarımız.

Söz onda deyil ki, nəsə alınsın.

Əsas, bax, odur ki, yada salınsın.

Hədiyyə vardır ki, qiyməti çoxdur.

Elə söz vardır ki, əvəzi yoxdur.

Ən gözəl hədiyyə bayramda güldür.

Könülü xoş edən bir şirin dildir!

Kişilər, bayramda xəsis olmayın?

Heç kimi xoş sözə möhtaç qoymayın.

Sevinsin hər yerdə gəlinlər, qızlar,

Yaxşı ki, dünyada bu xanımlar var!

Sizin hər biriniz bir çiçəksiniz,

Xoş günlər sizindir, görəcəksiniz!

Kaş elə həmişə gülsün üzünüz!

Sevinc göz yaşları görsün gözünüz!

Mübarək olsun qoy bu bayramınız!

Sevinin ürəkdən sizin hamınız!

Gözləyirik səni!

Ey gözəl Allahın, gözəl bəndəsi!
Kədərə bürüdün nədən hər kəsi?

İnşallah, qovarsan həmin kədəri.
Yazarsan özünə yeni qədəri.

Dağların başında olur qar, boran.
Sənինlə döyünür ürəklər bu an.

Qovarıq birlikdə dumanı, çəni.
Kədərə bələmə heç zaman məni.

Atamın bənzəri, əziz qardaşım!
Dərdimin şəriki, gizli sirdaşım!

Yenə də möhkəm ol, sən möhkəm dayan.

Heç zaman olmarıq biz səndən doyan.

Bürünmə heç zaman qəmə, kədərə.

Əyilmə yazılan belə qədərə.

İnşallah keçərsən bu maniyəni.

Burda gözləyirik hamımız səni!

.

Gözümün nurusan

Həyatda hər şeydən əzizsən mənə.

Nə yazsam, hər zaman yaraşar sənə.

Yaradan bəxş edən zərif çələngsən.

Mənimçün həmişə gözəl, qəşəngsən!

Gözümün nurusan, ağzımın dadı.

Sən valeh edirsən qohumu, yadı.

Xanımlıq var sənin gözəl canında.

Balalar böyüyür gültək yanında.

Ağlını götürdün sən dəryalardan.

Mələktək doğuldun elə anadan.

Gözümə nur verən bir mələyimsən.

Hər zaman özümün sən gərəyimsən.

Mən səndən razıyam dünyalar qədər.

Yaradan verməsin heç zaman kədər.

Dünyanı yarınla dolan, gəz qoşa.

Ömrünü həmişə firavan yaşa.

Gülayımdır!

Şirindir deyirlər pulun sələmi,

Görəsən, doğrudan, bax, bu beləmi?

Nəvəni sələmə bənzədirəm mən.

Mənimtək düşünən heç varmı görən?

Gülaydır ömrümün ən xoş baharı!

Mən onda görürəm dövləti, varı.

Sanki bir günəşdir isidir məni,

O valeh eyləyir onu görəni.

Əgər gül nəfəsi dəysə üzümə,

Sanki bir güc gəlir mənim özümə.

Mən ondan alıram gücü, ilhamı.

Bunu gözəl bilir tanıyan hamı.

Mənim həyatımın o, mənasıdı.

Onu hədsiz sevən öz Rənasıdı.

Dünyada ən şirin öz Gülayımdı!

Tanrının verdiyi əziz payımdı!

Balamın yarısan!

Gözəl gözlü mələyim!

Budur sənə diləyim.

Yoldaşınla sən qoşa,

Həmişə xoşbəxt yaşa.

İki gözəl oğlun var.

İnşallah xoşbəxt olar!

Gör onların toyunu.

Sev həmişə boyunu.

Çox ağıllı gəlinsən!

Ailəni qoru sən.

Sən balamın yarısan.

Qardaşımın barısan.

Həmişə gözəl oldun.

Nur tək evimə doldun.

Gəlin yox, qızımsan sən.

Çox sevirəm səni mən!

Gündə düşmə xəyala

Eşşək düşür xəyala.

Bilməyir kimi ala.

O istəyir tərpənsin.

Artıq indi evlənsin.

Heç kəs gəlmir xoşuna.

Gəzir boşu-boşuna.

Eşşək gəzib, dolanır.

Möcüzəyə inanır.

Bir eşşəyə vurulur.

Onun kefi durulur.

Nəhayət o evlənir.

Çəmənlikdə şellənir.

Aylar ötür, il keçir.

Məhəbbət sona yetir.

Gəlib deyir, ay anam,

İstəyirəm varlanam!

Varlı qız alacam mən.

Evlənəcəm yenidən.

Bu yaraşmır özümə.

Həm də baxmır sözümə.

Mən deyənləri etmir.

Dükan, bazara getmir.

O, evdə olub xanım.

Əldən düşübdü canım.

İndi deyim, biləsən.

Hər yükü çəkirəm mən.

Çox çalışdığım getmir,

Heç bir şey ona yetmir.

Mən buna mat qalmışam.

Eşşək adı almışam.

Bu yandırır adamı.

Milyoner olur hamı.

Varlı qızı alırlar.

Bəy kimi dolanırlar.

Ana deyir, de görək,

Bəs uşağı neynəyək?

Aç qulağını, sən bil.

Eşşəkdir bizim nəsil.

Varlanıb sən öyünsən,

Bəy libası da geysən,

Bu adı biz almışıq,

Yaddaşlarda qalmışıq.

Eşşəklikdi peşəmiz.

Yoxdu gündüz, gecəmiz.

Eşşək sən ki, sən özün.

Heç yerdə keçmir sözün.

Mən deyirəm, ay bala.

Gündə düşmə xəyala.

Sal başını aşağı,

Qoru arvad, uşağı.

Hər zaman fəxr etdim

Sən könül bağımda açan çiçəksən.
Dünyada hamıdan gözəl-göyçəksən.

Ətrini alıram hər gün doyunca,
Mən səni sevəcəm ömrüm boyunca.

Kölgəm tək həmişə gəzirsən mənlə.
Hər zaman fəxr etdim, gözəlim sənlə!

Sussuz bir səhrayam elə bil sənsiz.
Çətindir yəqin kı, sənə də mənsiz.

Gözəlim, çağlayan bir şəlaləmsən!
Sən özün mənimçün başqa aləmsən.

Evimdə böyüyən bir qızılgülsən!

Hər zaman oxuyan gözəl bülbülsən!

Günəşsən, bu aləm sənlə nurlanır!

Sənin bu nurunla evim canlanır.

Gecənin zülməti yayılanda sən,

Ay, ulduz olaraq səpələnirsən!

Həyatımsan, gülüm

Dan yeri sökülən an,

Bizim gözəl Yaradan.

Səni bəxş etdi mənə.

Bir ömür verdi sənə.

Ağ xalatlı mələksən.

Mənim üçün sən təksən.

Çiçəktək boy atmısan,

Sən bu yaşa çatmısan.

Ömrümün mənasısan,

Üç uşaq anasısan.

Ancaq mənim üçün sən,

Hələ şirin körpəsən.

Var üzündə təbəssüm,

Sən həyatımsan, gülüm!

Damarında var qanım,

Sənə qurbandır canım.

Aprelin on səkkizi,

Çox sevindirir bizi.

Həmin gözəl gündə sən,

Bu dünyaya gəlmisən!

Ay ömrümün bəzəyi,

Anasının ürəyi!

Duyaçıyam mən hər an.

Nə yaxşı kı, sən varsan?

Həyatın bir anlığı

Gözəlim, burada dayanıb zaman,

Nənədir, nəvəynən oturub bu an.

Güzgünün bir üzü cavanlığır,

Bir üzü həyatın bir anlığıdır.

Yaranıb otaqda gözəl mənzərə.

Qocalıq boylanır ordan bizlərə.

Uşaqlıq təəccübdən donub qalıb,

Qışqırıb ətrafa bir haray salıb.

Kimdi ordan mənə baxıb, boylanan?

Maraqla baxaraq, sakit dayanan?

Qocalıq sakitcə gülümsəyirdi,

Həsrətlə baxaraq nələr deyirdi?..

Çünki o, bələddir orda durana,

Tələşdən özünü yerə vurana.

O onun uşaqlıq xatirəsidir.

Ömrünün, gününün gül kişəsidir!

Böyüyüb içində pöhrələnibdir,

Gülləri açılıb qönçələnibdir.

Qonçələr yetişib olub gözəl gül,

Nəğmələr oxuyub güllərə bülbül!

O körpə anlamır xəzan vaxtıdır.

Dayanan o, qoca onun bəxtıdır.

Qocalıq həsrətlə bax, gülümsəyir.

Həyatdan özünə nələr istəyir?

Qaldırıb əlini təslim olubdur.

Ömrünün gülləri artıq solubdur.

Əlindən gələsi heç nəyi yoxdur,

Demək istədiyi şeyləri çoxdu...

Baxıb o, güzgüyə görür onları,

Körpəsə, anlamır heç cür bunları.

Dayanıb, ürəkdə üz-üzə sözlər.

Lal baxışlarıyla, danışır gözlər!

Onların söhbəti bircə anlıqdı.

Öyrənmək istəyən, bax, cavanlıqdı!

İlanla yarpız!..

İlanın zəhləsi yarpızdan gedər.
Hər zaman yarpızı xəbərdar edər.

Deyər ki, nə verib ala bilmirsən?
Etdiyin pislikdən niyə ölmürsən?

Hər yerdə havanı korlayırsan sən,
Üfunət qoxundan iyrənirəm mən.

Arxamca düşübsən qarabaqara,
Məni yemək ücün əl atdın hara?

Demək bitkinin də eşşəyi varmış.
Bir qarın çörəyə yük daşıyarmış.

Həmin o yarpızın eşşəyisən sən.
Məndən düşmənimə xəbər verərsən.

Bir qarın çörəyə quyumu qazdın,
Yuvamın ağzından yolunu azdın.

Eşşək arısına bənzədin bir az,
Məni yeməyinin faydası olmaz.

Gördünmü, daha da iylənmiş oldun.
Kənardan baxaraq saraldın, soldun.

Mənimçün bir heçsən, toz dənəsisən.
Quyruğa yapışan bir gənəsisən.

Bilirsən, sən yarpız, mən də ilanam.
Səni boğmaq üçün sənə dolannam.

Sıxaram mən sənin, bax, xirtdəyini,
O həddə catdırma, deyirəm, məni.

Sadəcə olaraq deyirəm sənə,
Görünmə gözümə bir daha yenə.

İlk müəlliməm

Məktəbdir ən gözəl təhsil ocağı,
Mənə çox əzizdir küncü, bucağı.

Məktəbdə çalışır müəlliməmiz,
Onunla hər zaman fəxr edirik biz!

İkinci anasan ilk müəlliməm, sən.
Xeyirli bir övlad olacağam mən.

Çoxdur üzərimdə sənin əməyin,
Həmişə dəyibdir mənə köməyin.

Mən səndən öyrəndim qələm tutmağı,
Hərflər yazmağı, həm də oxumağı.

Birlikdə keçirdik biz bu dörd ili.
Mənimçün həmişə oldun sevimli.

Heç zaman çıxmazsan mənim yadımdan.
Sənə söz verirəm sinif adından,

Sənin əməyini itirmərik biz.
Əziz, Güləbatın müəlliməmiz!

İnci yatağıdı mənim bu könlüm!

Mənim şeirlərim övladlarımdı!
Hamısı dövlətim, həm də varımdı.

Şeirlər qəlbimdən qopan incidir.
Hər biri mənimçün lap birincidir.

İnci yatağıdır mənim bu könlüm,
İstər lap ağlayım, ya da ki, gülüm,

Zərrə-zərrə qopur həmin incilər.
Onları saxlayan bağlar incələr.

İncilər süzülür bir-bir qəlbimdən,
Yenidən onları bağlayıram mən.

İnci yatağıdır mənim bu könlüm.

İstər mən yaşayım, ya da ki, ölüm,

Həmin bu incilər yaşayacaqdır.

Elləri, obanı hey aşacaqdır.

Bu gözəl incilər öz bəzəyimdi!

Əbədi döyünən bir ürəyimdi!

İncinin qopduğu yer

Şirindir, şəkərdir balamın özü.
Badama bənzəyir o qara gözü.

O bir incidir ki, qopub qəlbimdən.
Onu bir nemәttək qoruyuram mən.

Bu dünya dağılsa, gəlsə də sonu,
Ovcumun içində tutmuşam onu.

Qoymaram ayağı yerlərə dəysin.
Susuz bir gül kimi boynunu əysin.

Bilmirəm dünyada hara-haradır?
İncinin qopduğu yerlər yaradır.

Yığılsa təbiblər, gəlsə loğmanlar.

Sağalda bilməzlər, dağılar qanlar.

Elə bir yaradır, elə qan verir.

Yaralı bu qəlbim hər gün can verir.

Ovcumun içinə düşsə də inci,

Qəlbimdə tutduğu yerdi birinci!

İstəmirəm mən inanam

Üzür qüssə, kədər məni.
Mənmi doğdum, oğul səni?

Kaş öləydim, həmin zaman.
Olmayaydım sənin anan!

Mən ömrümü verdim sənə,
Göz yaşları verdin mənə.

Rahat yatdın beşiyində.
Durdum sənin keşiyində.

Şirin yuxum oldu zəhər.
Boğur məni indi qəhər.

Gör necədir vəziyyətim?
Puç olubdu əziyyətim.

İstəmirəm heç inanam,
El içində mən qınanam.

Doğrudurmu bu olanlar?
Yox olaydı həmin anlar.

İstəmirəm qoçalasan!

Sığallayır üz-gözümü,
Qucaqlayır tez özümü.

Deyir nənə, qorxuram mən.
Qocalarsan, bax, birdən sən?

Neyləyərəm onda özüm?
Budur, sənə doğru sözüm.

İstəmirəm qocalasan.
Kaş beləcə sən qalasan.

Gözüm qalır hey üzündə,
Gör dünyanın bu düzündə,

Mən deyirəm indi yenə.
Sənin kimi varmı nənə?

İstəmirəm qırış olsun.
Mənim nənəm yaşa dolsun.

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

İstəyirəm mən həmişə,
O, bənzəsin qoy günəşə!

Kaş ki səni görməyəydim!

Darıxıram artıq özüm.
Vallah, daha yoxdu sözüm.

Kor olaydı kaş ki gözüm.
Səni elə görməyəydim.

Nə bəladı düşmüşəm mən?
Məhv elədin bizləri sən.

Nə deyirsən indi, görən?
Kaş ki səni görməyəydim!

Artıq seçdin sən yolunu.
Qırdın mənim əl-qolumu.

Evliliyin bu sonumu?

Kaş ki səni görməyəydim!

Allah cəkdi mənə dağı.

Viran etdi bağça, bağı.

Yediklərim oldi ağı!

Kaş ki səni görməyəydim!

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Katibdir bizim babamız!

Abuzər Həsənov

Gözədir vətənim, gözəldir elim!
Həmişə ürəklə söyləyir dilim.

İgidlər yetişir bu vətənimdə,
Baxıram onlara fəxirlə mən də.

Mərd oğullar yetişdirir vətənim!
Onlardan biri də babamdır mənim!

Abuzər babamdır, tanıyır hamı,
Elindən almışdır babam ilhamı.

Sarışın, bəstəboy olubdur özü,

Daşdan da keçibdi, babamın sözü!

Vətənə, elinə etibarlıddır,

İşgüzar, zəhmətkeş, həm vüqarlıdır!

İllərlə rayonda katib olubdu.

İşinin başında babam durubdur.

Həmişə işləyib o çalışmışdır,

Əməyə, zəhmətə bərk alışmışdır.

Böyütmüş zəhmətlə altı övladı,

Çox yumşaq ürəkli çıxıbdır adı.

Dünyada şirin şey nəvə dadıdır.

Könül ilk nəvənin gözəl adıdır.

Abuzər Həsənov daddı bu dadı,

Çox gözəl insan tək tanınır adı.

Altmış il yaşamış bizim babamız.

Sevirik ürəklə onu hamımız!

Kənanım

Ömrün boyü güləsən,

İstəyirəm biləsən.

Ürəyimin özüsən,

Nəslimizin gözüsən!

Deyirəm dönə-dönə,

Xoşbəxt ol, Kənan, sənə!

Yaşa xoşbəxt, firavan.

Qoy gəlsin gözəl sədan.

Eşidək biz sevinək,

Kənanımla öyünək!

Var sənin körpə balan,

O böyüyür anbaan.

Bunu tək demirəm mən,

Sənin özünsən eynən.

Onunla fəxr edəsən,

Bəhrəsini görəsən.

Xoşbəxt ol, sən yarınla,

Öz sevgi baharınla.

Şən olsun ev-eşiyin,

Yırğalansın beşiyin.

Oğul-qız sahibi ol.

Yoldaşınla yaşa dol!

Bol olsun sevinciniz,

Sizinlə fəxr edək biz!

Kərpic düşür ömürlərdən

Aylar keçir, il dolanır,

Yavaş-yavaş ömür yanır.

Vardır gecə, bir də gündüz,

Yaşayırıq onları biz.

Ağlayırıq, gah gülürük,

Nə olacaq, heç bilmirik.

Gələcəyə can atırıq,

Qocalığa biz çatırıq.

Hamsı gedir bu ömürdən,

Əcəl gəlir çox qəfildən.

Əbədidir bu dünyamız,

Köçəriyik biz hamımız.

Yaşlar gəlir sevinirik,

Ancaq, vallah, biz bilmirik,

Sabah bizə nə olacaq?

Kim öləcək, kim qalacaq.

Sevinirik gəlib yaşım,

Ağarıbdı necə başım?

Yaşlar gəlir hər il bizə.

Zədə vurur ömrümüzə.

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Sevinirik heç bilmədən,

Kərpic düşür ömürlərdən.

Kibritsiz də yanmaq olur

Kin-küdrət qəlbə dolur.

Kibritsiz də yanmaq olur.

Ürəyimdə od qalanır,

Kürəklərim alovlanır.

Bir də gördüm alışmışam,

Alovlara qarışmışam.

Baxdım sola, bir də sağa,

Addımladım tez qabağa.

Soruşdum mən adamlardan,

Görün nədir burda yanan?

Onlar heç nə görmürdülər,

Mənə baxıb gülürdülər.

Söylədilər onlar, inan,

Heç nə yoxdur orda yanan.

Yaşlı olan qoca kişi,

Anlamışdı artıq işi.

Mənə dedi, düz deyirsən.

Burda yanan sən özünsən!

Tüstü çıxar bacalardan,

İndi çıxır görün hardan?

Yanan sənin ürəyindir,

Tüstülənən kürəyindir!

Dərddən yanır bu ürəyin.

Allah olsun qoy köməyin!

Lənət etsin Allah mənə!

Hamını var doğan ana!

Bunlar qalsın başqa yana.

Neynəmişdim axı sənə?

Düşmən doğdu anan mənə.

Qoy cırılsın onun qarnı.

Bax, gör məndə günah varmı?

Dodaqaltı mızıldanma.

Qarğışları daha danma.

Yaxşıdırsa əgər ölmək,

Qoy özünə olsun gərək.

Neynəyirsən yeyib-içmək?

Bəyənirsən indi demək!

Söyləyirəm indi sənə,

Qarğış etmə heç vaxt mənə!

Var qarğışın iki başı.

Sən deyilsən axı naşı?

Pis olacaq, mən qarğısam.

Sən öləndə, bax, ağlasam.

Mən deyirəm dönə-dönə,

Lənət etsin, Allah mənə.

Lənət olsun Əzrayıla

Yeddi günüm gəldi başa.
Başım dəydi artıq daşa.

Heç bilmədim mən bir anlıq,
Dünya oldu çox qaranlıq.

Evim soyuq bir məzardır.
Bilmirəm heç, nə azardır?

Əzrayılım amansızdı.
Deyərdim ki, vicdansızdı.

Çökdü mənim bu sinəmə,
Dedi, daha bir söz demə.

Qoymadı ki, halallaşım.

Burdan sonra uzaqlaşım.

Tutdu mənim nəfəsimi,

Kəsdi tezcə öz səsimi.

Bilmədi ki, can yoldaşım,

Orda nələr çəkir başım.

Oğlumla o çox sevindi.

Söylədi ki, ağrı dindi.

Sakitləşdi bala, atan.

Yəqin odur sakit yatan.

Yaxşı ki, çox tez gətirdik.

Əzrayılı biz itirdik.

Bilmədi ki, orda kişi,

Çəlləşməkdi onla işi.

Çöküb onun sinəsinə.

Oturub döş qəfəsinə.

Tutdu onun boğazından.

Canı çıxdı tez ağzından.

Lənət olsun Əzrayıla!

Qoymadı ki, o ayıla.

Mən almasam evdə qalar

Son dəb ilə geyinmişəm,

Hamıdan çox öyünmüşəm.

Mən tapmışam gözəl bir yar.

Sevgilimdən, bax, harda var?

Atasının var imkanı.

Çıxacaqmı onun canı?

Ev-eşiyi, vallah, çoxdu.

Məndə nə iş, nə ev yoxdu.

Versin mənə gözəl bir iş.

Mənimlədi həmin vərdiş.

Gec dururam, çox yatıram.

İşə sonda mən çatıram.

Bir az gəzib dolanıram,

Kabinetdə uzanıram.

Səsləyirəm katibəni,

Masaj eyləyir o, məni...

Baxıram mən sənədlərə,

Qol çəkirəm hər bir yerə.

Pürrəngi çay verir mənə,

Tərk edirəm işi yenə.

İşləyirəm bu minvalla,

Çıxardırlar işdən, vallah.

Heç bir yerdə olmur tayım.

Neyləyim ki, yoxdu dayım?

Danışmıram, dinməyirəm.

Ev də ala bilməyirəm.

Mən getsəm də, daha hara,

Qalıram lap çox avara.

Yaxşı kı, var “vid-fason”um.

Gərək mütləq qıza qonum.

O, olacaq xilaskarım.

Olar evim, həm də yarım.

Üstündə bir ev versinlər.

Mənə sağ ol da desinlər.

Gecə, gündüz mən gəzərəm.

Özümü də tez bəzərəm.

Mən olmasam, kimdi alan?

Yoxsa, olar evdə qalan.

Mənim İlyasım!

Adına qurbanam, mənim İlyasım!
Qoy səni ürəklə bağrıma basım.

Çünki mənim balam, bizə əzizsən.
Sən bizim dəyərli bir körpəmizsən.

Dünyaya sən qədəm qoyduğun andan,
Adını almısan doğma babandan.

Peyğəmbər adıdır, bax, İlyas adı.
Onunçün gözəldir ağzının dadı.

Körpəsən, gördüyün dördcə bahardı,
Qarşıda çox gözəl günlərin vardır!

Bax, arzum budur ki, səni çox yaşa!

Ömrün günlərini gözəl vur başa.

Atalı, analı ol sən həyatda.

Ağıllı oğlan tək qalasan yadda!

Dünya bax, durduqca, səni durasan.

Həyat yaşamını gözəl qurasan!

Təbriklər sənindir, a qar topası,

Onunla bir olsun nənə, babası!

İlayda xoş gəlir sənin yanına.

Qurbanam, bax, bu gün gözəl çanına!

Qoy sənin adaşın tutsun əlindən,

Babamdır, kəlməsi duysun dilindən!

Öpürəm, bax, sənin o yanağından,

Ağzından bal tökən gül dodağından!

Mətanət

M-ətanətli, mətinsən.

Ə-zəmətli, gəlinsən.

T-ərtəmiz ürəyin var,

A-macın, diləyin var.

N-azlı, duzlu mələksən.

Ə-tirli bir çiçəksən.

T-əravətli bir gülsən!

Nəğmə deyən bülbülsən.

Çox sevirik səni biz.

Bizim gözəl gəlnimiz.

Mələklər mələyisən!

Hamının gərəyisən.

Mübarəkdi, bu yaşın!

Qoy sağ olsun yoldaşın.

Onunla birgə qoşa,

Ömrü vurun siz başa.

Məzarlıqdan yer istərəm!

Əlimi qaldırıb göyə, Allahım!
Soruşub deyirəm, nədir günahım?

Həyatda çəkdikcə mən öz yükümü,
İkiqat yüklədin sən dərd bükümü.

Mənasız həyatdır mən yaşamışam,
Qalan günlərimi çox sanamışam.

Xəstənin ürəyi qışda nar istər.
Yaydasa könülü buzlu qar istər.

İndi bax, mənim də yoxdur əlacım.
Kiçik bir məzara var ehtiyacım.

Çünki, bu həyatdan artıq doymuşam.

Məzarın yerinə bir daş qoymuşam.

Behlədim düz orda öz məzarımı.

Rədd edə bilmədim mən azarımı.

Xəstənin könülü istəyirsə nar,

Mənim də könlümə düşüb bir məzar.

Bunları söylədi gözəl bir xanım.

Yanında üzülüb qalıbdır canım.

Deyirlər, yaşamaq çox gözəldir bəs?

Uzun ömürlülük istəyər hər kəs.

Gör insan doyar ki, cana nə qədər?

Bax, onu bürüyər bu qədər kədər.

Kaş heç olmayaydı bu giley-güzar,

Gecindən verilsin hamıya məzar!

Mubarəkdir yetmiş yaşın!

Mələk uzlu mələyimiz,

Çox sevirik bax, səni biz!

Minnətdarıq Yaradana,

Yaradıbdı səntək ana!

Anaların anasısan,

Gözəllərin sonasısan!

Bir dənəsən yer üzündə,

Bu dünyanın sən düzündə,

Mələklərin mələyisən!

Hamımızın ürəyisən!

Görməmişəm belə mələk,

Çox cavansan hələ demək.

Günəş səndən işıq alır,

Yer üzünə onu salır.

Sən cəfakeş bir xanımsan,

Yetmiş illik bir canımsan!

Mübarəkdir yetmiş yaşın!

Ağrımasın heç vaxt başın!

Arzum budur, gümrah yaşa,

Yüzilliyi sən vur başa.

Müdrük insan

Dünyanın ən müdrük insanısan sən!
Bir ömür böyunca söyləyəcəm mən.

Görmədim sənin tək mən üzünurlu.
Həmişə olmusan özün uğurlu.

Sənin tək olaydı hamı dünyada.
Sən layiq olmusan qoyulan ada.

Ürəyin kövrəkdi, könlün çox incə.
Mən qürur duyuram səni görüncə.

Mən səni qocaman bir dağ bilmişəm.
Sənlə ağlayıb, sənlə gülmüşəm.

Həmişə hamıya vermisən çörək.

Hər zaman biz səni qoy sağlam görək.

Hamının qeydinə qalırsan özün.

Baldan da şirindi sənin hər sözün.

Allahdan budur ki, sənə diləyim,

Saattək döyünsün hər an ürəyəyin!

Müəlliməmiz

Sevirəm Şəlalə müəlliməni.

Həzin bir avazla səsləyir məni.

Sinifi bürüyür o gözəl səsi.

Anatək oxşayır çox vaxt hər kəsi.

Hər zaman o tutur əllərimizdən,

Məktəbdə ayrılmır bir an da bizdən.

Doğru yol göstərir müəlliməmiz.

Ürəyi aynatək, gül kimi təmiz.

Həmin o ürəkdi, bizlə döyünür.

Bizləri çox sevir, bizlə öyünür.

Hərdən o, adıtək coşub, çağlayır.

Bizimlə bir gülür, hərdən ağlayır.

Zəhməti çox olur üzərimizdə.

Əməyi var onun hər birimizdə.

Sevirik biz onu anamız qədər.

Çəkdiyi zəhməti getməsin hədər.

Nə yaxşı ki, mən varam

Mən Onur Qurbanlıyam.

Özüm isti qanlıyam.

Şipşirinəm mən özüm,

Badam kimidi gözüm.

Mən üzü çox nurluyam.

Olduqca qürurluyam.

Bir azca dalaşqanam.

Söyləyir bunu anam.

Tez küsüb, barışaram.

Qaynayıb qarışaram.

Heç kim çıxmır sözümdən.

Çox razıyam özümdən.

Məni sevir qohumlar!

Uşaq mənimtək olar!

Ən şirin bir nübaram,

Nə yaxşı ki, mən varam!

Nə yaxşı ki, sizlər var

Bütün gözəl xanımlar,

Nə yaxşı ki, sizlər var.

Xoş olsun bayramınız.

Layiqsiniz hamınız.

Körpəlikdə mələksiz.

Siz hamıya gərəksiz.

Sanki su sonasısız.

Oğul, qız anasısız.

Dünya sizlə oyanır.

Aləm nura boyanır.

Evlərə yaraşıqsız,

Hər işə alışıqsız.

Bilin dünyada hər an.

Fəxr edir sizlə cahan.

Deyirəm, ay qadınlar,

Çox yaxşı kı, sizlər var!

Necə qıydı?

Aləm çalxalanır, hamı ağlayır.
Yüksələn fəryadlar ürək dağlayır.

Heç qıymaq olarmı, belə cavana?
Dözə biləcəkmi, bu dərdə ana?

Nəslimiz itirdi, gözəl bir insan.
Onun yoxluğuna dözərmi, heç can?

Kor olmuş Əzrayıl düşdü izinə.
Bütün nəsil döyür indi dizinə.

Bilmirəm, nə üzlə gəldi yanına?
Necə qıydı onun cavan canına?

Gözüyaşlı qoydu gözəl yarını.

Heç yeyə bilmədi övlad barını.

Qoymadı o görsün bala toyunu.

Dadsın nəvə dadı, sevsin boyunu.

Əzrayıl qopartdı onu həyatdan.

Ancaq heç bir zaman çıxmaz o, yaddan.

Nədən döndü zəmanəmiz?

Gör bir işin harasıdır?
Pişik ördək anasıdır.

Basıbdı qoynuna onu.
Gəlibdi dünyanın sonu.

Beşgünlükdü bu dünyamız.
Köçəriyik biz hamımız.

Hamı yeyir bir-birini.
Allah yumub gözlərini.

Torpaq üsdə düşür dava.
Çox dəyişib abu-hava.

Heç kimsənin doymur gözü.

Nə boğazdan keçmir sözü.

Hər bir evdə var xəyanət.

Çəhənnəmə dönüb cənnət.

Qalmayıbdı abır-ismət.

Məhv olubdu izzət, hörmət.

Axşam xoruz olur hində.

Sabah durur başqa tində.

Səsi gəlir qonşu hindən.

Xəbəri yox öz evindən.

Xoruzdan çox olur tülkü.

Dağılıbdı artıq mülkü.

Hər hiyləyə o, əl atır.

Toyuğuna yalan satır.

Çox dəyişib bu zəmanə.

Toyuq deyir, bax, mənə nə?

Heç xoruzdan qalmır dala.

Tez düzəlir o da yola.

Utanmırlar heç bir kəsdən.

Pəsinmirlər gələn səsdən.

İtnən pişik dostluq edir.

At eşşəyi kəbin edir.

Əvvəl cücə yeyən pişik,

İndi ona çəkir keşik.

Nədən döndü zəmanəmiz?

Kimdə görək günahı biz?

Nədən onu mənə yazdın?

Axı məni sən yaratdın.

Nədən oda, közə atdın?

Neyləmişdim, görən, sənə?

Bu qədəri yazdın mənə.

Bax, budurmu, qeyrət, hünər?

Bütün bunlar nəyə dəyər?

Nədən onu mənə yazdın?

Mən diriykən, qəbir qazdın.

Gördüm ağır zülümləri.

Gəzdim loğman, həkimləri.

Nifrət etdim qədərimə,

Verdiyin bu kədərimə.

Məhəbbəti yaşadım mən

Nədən nakam yaratdın sən?

Üsyan edib bağırıram.

Allahımı çağırıram.

Göstər mənə hünərini.

Poz yazdığın qədərimi.

Neynəmişdim axı sənə?

Nədən yazdın onu mənə?

Nədən sevmədin?

Mən elə bilirdim sən mələyimsən.

Sinəmdə döyünən öz ürəyimsən.

Axı nə biləydim çox vəfasızsan?

Bu qədər zalımsan, sən insafsızsan.

İndi sualıma cavab ver, görək,

Məni nədən atdın, ey gözəl, mələk.

Sən dəli-divanə eylədin məni.

Unutmaz ürəyim heç zaman səni.

İndi də olubsan könül düşməni.

Bəs nədən sevmədin, səni sevəni?

Yenə sualıma cavab ver, görək,

Məni nədən atdın, ey gözəl mələk?

Dünyanı görürdüm sənin gözünlə.

Xəyallar qururdum hər an özünlə.

Gözəlim, deyirəm, gəl, məni dinlə.

Məcnuna dönmüşəm sənin eşqinlə.

İndi sualıma cavab ver, görək,

Məni nədən atdın, ey gözəl mələk?

Oynadın qəlbimlə, atdın kənara.

Məhəbbət yolunda qaldım avara.

Qəlbimi, sən çırpdın, mənim divara.

Ömürlük qəlbimə vurubsan yara.

Cavab gözləyirəm, de, məni görək,

Sən nədən sevmədin, ey gözəl mələk?

Nədən yazılıbdı ona bu yazı?

Bir gözəl gördüm mən yataq başında.

Kədər var gözündən gələn yaşında.

Xəstədir anası, yatır yataqda.

İkisi qalıbdı təkcə otaqda.

Ananın darıxır xəstə ürəyi.

Allahdan istəyir hər cür köməyi.

Qaranlıq gecədir, zəhmi də ağır.

Elə hey deyir ki, oğlumu çağır.

Ananı basıbdı qız sinəsinə.

Həlimlik veribdi, kövrək səsinə.

Nəğməylə anaya o, layla çalır.

Ana bu nəğmədən böyük həzz alır.

Onunçün çox ağır, uzun gecədir.

Arada soruşur, nəğmə necədir?

Ananın durubdu o, keşiyində.

Elə bil körpəsi var beşiyində.

Bilməyir, neyləsin, ona xoş olsun.

İstəyir, məlhəmtək qəlbinə dolsun.

O, onun deyil ki, təkcə anası.

Elə bil olubdu həm də balası.

Bu ana olubdu oğlu, həm qızı.

Nədən yazılıbdı ona bu yazı?

Allahım, sən onu çox görmə ona.

Ananın ömrünü yetirmə sona.

Bağışla ananı həmin gözələ.

Birlikdə yaşasın onlar əl-ələ!

Nəğməkar mələk

Allahım, bizlərə sən vurma yara.
Bu dərdi götürüb biz gedək hara?

O, kövrək mələyi salma, gəl, dara.
Qaytar bu ananı sən uşaqlara.

Oxuyub, ananın qatır başını.
Kövrəlir, saxlaya bilmir yaşını.

Rəhm elə sən onun bu göz yaşına.
Bütün dərd, azarı yığma başına.

Bağışla ananı onun özünə.
Nəğməkar mələyin nur ver gözünə.

Yaş deyil, gözündən qoy nur süzülsün!

Arzular çin olsun, önə düzülsün!

Nənəm

Gözəldir nənəmin iri gözləri,

Yadımdan çıxmayır şirin sözləri.

Gözümün önündən getməyir inan,

Səsi qulağımda səslənir hər an.

Mən özüm olmuşam qoca bir nənə,

Ürəyim istəyir nənəmi yenə.

Gözlərim həmişə yolunda qalıb,

Əzrayıl nənəmi əlimdən alıb.

Heç güçüm çatmadı bu Əzrayıla

İstədim səsləyəm, bəlkə, ayıla?

Heyif ki, olmayir bunun faydası.

Onun əvəzində var məzar daşı.

Yanıma gəlməyə yoxdur əlacı,

Bu verir bizlərə kədər və acı.

Onu ziyarətə gedirəm özüm,

Baxıram məzara, yaşarır gözüm...

Nənəsinin ürəyi

Günəştək doğuldun sən ömrümüzə.

Xoşbəxtlik gətirdin hər birimizə.

Həyatın ən dadlı nemətisən sən!

Dadından heç zaman doyammaram mən.

Həyatın mənası, oğlum, səndədi.

Səninlə fəxr edən ürək məndədi.

Hər zaman səninlə bir vurur ürək.

Nənənin ürəyi sənsənmiş demək!

Sən mənim həyatım, son beşiyimsən.

Döyünən ürəyim, ev-eşiyimsən!

Yaradan göndərib, bax, səni mənə.

Qurbandır hər zaman bu nənə sənə!

Baxıram o yana, gah da bu yana.

Minnətdar oluram, mən, Yaradana.

Yaxşı ki, o, səni bəxş edib bizə.

Sənինlə nur salıb öz ömrümüzə.

Neynəsin yazıq qaynana?

Qaynana övlad tək görür gəlini,
Anadan döndərsə gəlin ərini.

Onda, bax, neynəsin, yazıq qaynana?
Axı o oğlanı böyüdən ana!

Oğlundan görəndə soyuq bir üzü,
Ananın olmayır gecə, gündüzü.

Gəlin təhqir etsə, qaynanasını,
Günahkar görürsə o, anasını.

Gəlinə üz verir onun öz əri.
Onda bu oğlanın varmı dəyəri?

Gəlin hücüm edir qaynanasına.

Sakitcə baxırsa o, anasına...

Günahkar olur, bax, oğlanın özü.

Bu anda qurtarır ananın sözü.

Nədən o, inanır öz arvadına?

Həmişə, hər zaman çatır dadına.

Heç qulaq asmayır ana sözünə.

Ancaq nifrət edir onun özünə.

Gəlinlə birləşib kələk qurursa,

Məqamı düşəntək zərbə vurursa,

Onlar girirlərsə əgər min dona,

Onda o oğulu neynəyir ana?

Gəlinin ayağı ondan yer alır,

Qoca bir ananı düzlərə salır.

Bax, onda kordurmu həmin bu oğlan?

Göstərmir gəlinə yerini o an?

Günlər keçəcəkdir, gələcək zaman.

Olacaq onların özləri peşman.

Fayda verməyəcək həmin peşmanlıq.

Məhv olub, dağılıb bütün insanlıq.

Niyə qocaldın , ana?

Baxıram sağıma, həm də soluma,

Məni böyütdüyün iki qoluna.

Baxıb əllərinə çox kədərləndim.

Dayana bilməyib mən qəhərləndim.

Mənim gözəl anam, niyə qocaldın?

Baxanda, yadıma nələri saldın?

Gəldi xəyalıma mənim bir anlıq,

Geriyə dönməyən gözəl cavanlıq.

Qamətin ucaydı cavanlığında,

Gözəldir, bax, indi qocalığın da!

Qocalıq olsa da gözəl nə qədər ,

Baxanda adama gətirir kədər.

İstərəm, ay ana, bax, elə bu an,

Dəyişib olasan yenidən cavan.

Nə ola, cavanlıq dönəydi dala.

Əlindən əsanı, kaş, özü ala.

Əsasız gəzəydin həyətimizdə,

Baxıb sevinəydik, bax, sənə biz də!

Nur gətirdim

Bütün aləm oyanıbdı.

Dünya nura boyanıbdı.

Günəş enib yerə gəlib,

Düz önümdə dayanıbdı.

Əl uzatdım mən Günəşə.

Göydə olar o həmişə.

İndi yerdə olan nədir?

Mətəl qaldım lap bu işə.

O, tutmuşdu əllərimdən,

Dedi, nənəm, burdayam mən.

Lap yüksəkdən endim yenə.

Qonaq gəldim özüm sənə.

Nur gətirdim sənə aydan.

Hey yararlan həmin paydan.

Tut əlimdən, ayır məni.

Gurultudan, hay-haraydan.

Nura bələndik

Yenə də yığıldıq oçağımıza,

Xoş təsir eylədi bu hamımıza.

Axtardıq, tapmadıq heç anamızı.

Bu məyus eylədi biz hamımızı.

Atamla birlikdə tutub əl-ələ,

Dönəsi deyildi evinə hələ.

Onlar tərk etmişdi evini aman,

Almışdı özünə yeni bir məkan.

Getdik görüşünə onların yenə,

Möcüzə göstərdi Allahım mənə.

Ruhları gəzirdi həmin məkanda,

Oraya biz ayaq qoyan bir anda,

Sevincdən bu ruhlar göylərə qalxdı,

Gözyaşı nur kimi yerlərə axdı.

Tələtüm başladı həmin o anda.

Kövrəklik yarandı hər bir insanda.

Öpdü, qucaqladı hamını bir-bir.

Evləri olmuşdu onların qəbir.

İçəri bizləri dəvət etmədi.

Başımız üstündən bir an getmədi.

Dönüb geri bizi qucaqladılar,

Sevincdən hönkürüb bərk ağladılar.

O yaşlar nur kimi yerə ələndi.

Bu gün hamı həmin nura bələndi.

Bir-bir oxşadılar hər telimizi.

Əzizləyib yola saldilar bizi.

Ölən deyiləm

Qucaqlayıb məni ağlayan balam,

Ruhumu, qəlbimi dağlayan balam.

Gözyaşı sel kimi çağlayan balam,

Qorxma mənim balam, ölən deyiləm

!

Söylədi: Gülayım bu axşam mənə,

Qorxum var həyatda mənim bir dənə.

Əzrayıl hərlənib toxunar sənə.

Onda mən neylərəm sənsiz, ay nənə?

Mənim əziz balam, ölən deyiləm!

Əzrayıl kimdir ki, ona əyiləm?

Sənincün ölmərəm, mən özüm inan.

Məni də kövrəltdin, Gülayım, yaman.

Söylədi: mən böyük olan zamanda,

Əvvəl-axır bir gün sən yox olanda.

Bax, onda mən sənsiz neynərəm nənə?

Hönkürüb ağladı Gülayim yenə.

Xəbərdar edirəm, ürəyim, səni,

Tökülən göz yaşın ağlatdı məni.

Budur, mənim sənə verdiyim sözüm,

Sənincün heç zaman ölmərəm özüm!

Olmayacam mən düzələn

Mən xoruzam, xoruzlandım.

Özümü bir kişi sandım.

Bəzək vurdum üz-gözümə.

Heyran oldum lap özümə.

Uzatdım mən saçlarımı.

Aldım bir az qaşlarımı.

Geyinmişəm təzə libas.

Libasım tərtəmiz atlas.

Mən gəzirəm düz-dünyanı.

Mənim kimi xoruz hanı?

Tapılmıram heç evimdə.

Pullarım çox öz cibımdə.

Danışıram çoxlu yalan.

Yoxdur mənə heç inanan.

Don-Juandı mənim adım.

Qardaşımdı öz ustadım.

Dağılsa da dünya, aləm.

Dirilsə də ölən dədəm,

Uca səslə deyirəm mən,

Olmayacam heç düzələn!

Olmayaydı kaş bu acın

Bu gün oldum bir məclisdə,
Deyim onu, bilin siz də.

Əsmişdi yel, qopub tufan,
Dağıtmışdı həmən zaman.

Gözəl evin, bax, damını.
Ağlar qoydu bir xanımı.

Tufan sona yetən zaman.
Çox sevdiyi gözəl oğlan.

Tufan coşan o zamanda,
Yox olmuşdu bu tufanda.

Xanım baxdı hər bir yana,

O qalmışdı yana-yana.

İnanmadı gözlərinə,

Aldanmışdı sözlərinə.

Bir yaşımdan sevdim onu.

Belə oldu işin sonu?

Yarıyolda məni atdı,

Gücü elə buna, çatdı?

Vəfasızdır mənim yarım.

Əsəblərim olub tarım.

Şəkli qalıb, bax, əlimdə,

Bir də adı bu dilimdə.

Səsləyirəm səs verməyir,

Daha məni heç görməyir.

Xanım dedi: necə olar?

İndi məni özün apar!

Sevdim sənin mən özünü,

Yerə salma bu sözümü.

Adı kimi məlahətli,

Öz yarına çox həsrətli,

Belə gözəl görmədim mən.

Möhkəm dayan, gözəlim sən!

Gələcəkdir bax, bir zaman,

Bircə, bircə hamımızın,

Sonu gələr canımızın.

Bax, o zaman hərəmizi,

Gözləyəcək öz əzizi.

Ömür yöldaşım

Ey mənim qırxillik ömür yoldaşım!

Həyatda ən yaxın dostum, sirdaşım.

Yaxşı ki, yaradıb yaradan səni.

Sənin qismətinə yazıbdı məni.

İrəli getdik biz, tutduq əl-ələ.

Nə qədər xoş günlər gözləyir hələ.

Hər ildə yaş üstə gəldi təzə yaş.

Saçlara dən düşdü, həm ağardı baş.

Ey mənim istəkli həyat yoldaşım.

Sənlə birlikdə ağardı başım.

Sən mənim arxamda dağ tək dayandın.

Yuxudan hamıdan erkən oyandın.

Yorulmaq bilmədən sən hey çalışdın.

Övladlar yolunda yandın, alışdın.

Zəhmətkeş atasan, sevimli baba.

Sənինlə fəxr edir, bütün el, oba!

On beşcə bahar

Mənim gözəl balam, həyatım mənim,

Sənsən bu sinəmdə vuran ürəyim.

Dünyanın ən dadlı nemətisən sən.

Heç zaman dadından doyammaram mən.

Həyatda görübsən on beşcə bahar.

Qarşıda nə qədər gözəl günlər var.

Yaşa hər bir günün şirin dadını.

Həmişə ucalt sən övlad adını.

Qurbanam mən səni o yaradana.

Sənինlə fəxr etsin qoy doğan ana.

Atana dayaq ol sən hər bir zaman.

Allahım qorusun nəzərdən, aman.

Biz səni sevirik, dünyalar qədər.

O gözəl gözlərin görməsin kədər.

Bütün bu illərin gəlsin uğurlu.

Həmişə ol belə məğrur, qururlu.

Onu sən yaz mənə

Vurulmuşam bir gözələ.

Gördüm onu bu gün yenə.

Yalvarıram, Allah sənə.

Bu gözəli sən yaz mənə!

Sevdiyim qız gözəl-göyçək.

Açılmamış qonçə çiçək.

Bu sevgiyə bir əncam çək.

O, gözəli sən yaz mənə!

Hər şey sənin əlindədi.

Hə kəlməsi dilindədi.

Kağız, qələm önündədi.

Allah, onu sən yaz mənə!

Bir andaca kəs kəbini.

Bağla onun sən dilini.

Qoy gətirım mən gəlini.

Bu gözəli sən yaz mənə!

Yalvarıram dönə-dönə.

Rəhmin gəlsin sənin yenə.

Minnətdaram, Allah sənə.

Sevdiyimi sən yaz mənə.

Otuz ildir

Qardaşım Yusifə

Qardaşdır dünyanın neməti, nazı,
Allahım qoy olsun, onlardan razı.

Qardaşlar bacının başda tacıdır.
Qardaşı itirmək böyük acıdır.

Bacının dalında bir dağdır qardaş.
Köməyə gələrlər həmişə birbaş.

Çəkərlər hər zaman namus, qeyrəti,
Dediyi sözlərin olar hikməti.

Allahım, diz çoküb yalvardım sizə,

Qardaşın dağını göstərmə bizə.

Bu dağın altından çıxa bilmədik,

Yaşadıq, nə də ki onsuz ölmədik.

Ancaq bu yaşamaq, yaşam olmadı.

Heç zaman, heç bir vaxt yerin dolmadı.

Biz səni sevmişdik dünyalar qədər,

Sən verdin illərlə hamıya kədər.

Bu sənlik olmadı, eylədi fələk.

Qardaşsız yaşamaq görün nə demək?

Düz otuz ildir ki, sən yox olmusan.

Bütün ürəklərdə bir ox olmusan.

Özünə bir quş tapıb

Gör nə günə qalmışam?

Mən yaman qocalmışam.

Gəzirəm çölü, düzü,

Deyirəm, budur düzü.

Təzə eşqə düşmüşəm.

Nə olsun bürüşmüşəm?

Həkk gəlmişəm özümə.

Ürək baxmır sözümə.

Nə lazımdır edirəm,

Mən idmana gedirəm.

Vurulmuşam cavana.

Qalmışam yana-yana.

İstəyirəm şax duram,

Mən bığlarımı buram.

Bəlkə bəyəndi məni.

Sanki görür düşməni.

Bax, kordur onun özü.

Elə bil görmür gözü..

“Botokos” vurdurmuşam.

Gör necə düz durmuşam!

Pul məndə, para məndə,

Sən də ac gəz çəməndə.

Bax acından öləndə,

Sonra məni görəndə,

Çox yalvararsan sən də,

Əgər gələrsən mənə.

Kef göstərərəm sənə.

Özünə tapıb bir quş,

Məni də edib bayquş.

Ac durun siz budaqda,

Ya da ki, boş otaqda,

Açından sən ölərsən,

Sonda mənə dönərsən!

Qadınların bayramı

Xoş gəlibdi bayramımız,

Qoy sevinək biz hamımız.

Mübarəkdir qədəmləri,

Silsin qüssə, kədərləri.

Bahar gəlib elimizə,

Şənlik dolub evimizə.

Aləm geyib yaşıl donu,

Çərşənbənin çatıb sonu.

Səkkiz martdır bayramımız,

Qoy xoş olsun əhvalımız.

Hər ildə düz, bax, bircə gün,

Ayrılıbdı bizə düzgün.

Biz sevirik bu bayramı,

Çox sevinir indi hamı.

Mənim ana, bacılarım,

Xoşdur sizə arzularım!

Sağlam olsun qoy canınız,

Xoşbəxt olun siz hamınız.

Hər bir şeyə qadirsiniz,

Yer üzündə nadirsiniz!

Mənim gözəl mələklərim,

Sizə budur diləklərim.

Qoruyun öz canınızı!

Çox sevirəm hamınızı.

Azərbaycan qadınları

Təbrik edir sizi hamı!

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Qardaşım

Dağların başında olur duman, çən.
Həmin o dağlara bənzəyirsən sən.

Dağlartək möhtəşəm, həm vüqarlısan.
Dostluğa sadiqsən, düz ilqarlısan.

Çox asta yerişli, enlikürəkli,
Həm polad biləkli, nazik ürəkli.

Qəlbi təmiz olan bir insansan sən.
Hər zaman sənինlə fəxr elədim mən.

Söykə kürəyini öz kürəyimə.
Qurbandır ürəyim, saf ürəyinə.

Qoy dərdin dağılsın dağlara, daşa.

Qardaşım, bu ömürü sən xoşbəxt yaşa.

Biz səni sevirik, əzizləyirik.

Hamımız yolunu çox gözləyirik.

Allahım üstündə olsun, əzizim,

Gözümüz yollarda qalıbdı bizim.

Qayıt yanıma

Gülaya

Hardasan, ürəyim, nəfəsim mənim?
Gözləri yollarda qalıb nənənin.

Heç özün bilirsən, sən nə etmisən?
Gör neçə gündür ki, çıxıb getmisən.

Darıxdım, mən sənsiz dözə bilmirəm,
Ürəkdən danışıb, qəlbən gülmürəm.

Şirin dillərinlə aldatdın məni,
Necə xəyalımdan çıxardım səni?

Hər yana baxıram, yerin görünür,

Sənsiz dünya-aləm qəmə bürünür.

Arxama baxıram yol yeriyəndə,

Elə bil arxamca gəlirsən sən də!

Gözümə görünür gözəl gözlərin!

Gəlir qulağıma şirin sözlərin.

Gecələr gəlirəm mən otağına,

Həsrətlə baxıram boş yatağına.

Yalvarıb yatağa deyirəm inan.

Gözəlim, nə olar, sən burdan oyan?

Nənənin həyatı, qayıt yanıma!

Mən qurban olaram, şirin canına!

Qaytara bilərsiz mənə?

Düşmüşdü növbəti qaranlıq gecə.

Əzrayıl vurnuxdu bu axşam necə?

Adam ovlamağı etmişdi peşə.

Bu axşam çıxmışdı o yenə işə.

Gözləri bir evi qaralamışdı.

Dörd ildən bir ora yolun salmışdı.

İlk dəfə ananın aldı canını.

Apardı bu evin o sultanını.

Bir kişi, üç övlad yetim qaldılar.

Uşaqlar o ataya meyl saldılar.

Heç nəyin ləzzəti yoxdu anasız.

Bu cəllad nə qədər oldu insafsız?

Əzrayıl flrlandı, bir də dolandı.

Evin kandarına yenə dayandı.

Elə bil o evə kəsildi qənim.

Söylədi: indi də bu ata mənim.

Kişinin damardan keçdi qanına.

Zəhər tək yayıldı onun canına.

Atanın beləcə aldı canını.

İndi də apardı evin xanını.

İşini Əzrayıl yetirdi sona.

Nifrət eyləyirdi insanlar ona.

Yanıb, sızlayırdı hamının canı.

Əzrayıl tərk etdi həmən məkanı.

Elə ki, dörd ili vurdular başa.

Növbə də yetişdi böyük qardaşa.

Əzrayıl onlara yenə baş vurdu.

O, böyük qardaşın önündə durdu.

Aparıb onu da soxdu gözünə.

Fəxrlə o, aynada baxdı özünə.

Əzrayıl cəllad tək görkəm almışdı.

Özündən olduqca razı qalmışdı.

Aradan keçmişdi yenə də dörd il.

Əzrayıl iy tutdu sanki elə bil.

Fırlandı yenə də evin başına.

Əlinnən toxundu hər bir daşına.

Dayandı, bir qədər xəyala daldı.

Verilmiş fərmanı əlinə aldı.

Üzünü düz tutdu o, Allahına.

Məhəttəl qalmışdı öz tamahına.

Söylədi sən məni nədən yaratdın?

Çəhənnəm odunun içinə atdın.

Canları almağı tapşırdın mənə.

Bir əmir veribsən indi də yenə.

Gördü ki, uzanıb İlham divanda.

Çökdü sinəsinə həmin o anda.

O saat yapışdı düz ürəyindən.

Ürəyi çıxartdı tez kürəyindən.

Sən necə qıydın bu gözəl oğlana?

Bacısı qalıbdı, bax, yana-yana.

Sevdanın kəsməyir gözünün yaşı.

Əlindən gedibdi iki qardaşı.

Deyir ki, onlar yox, ölməliydim mən.

Onlarsız yaşayım, axı, mən nədən?

Qoy ölsün bacılar, götürsün qardaş.

Onların yerini verərmi yoldaş?

Qanında var onun atamın qanı.

Canıma bağlıdır onların canı.

Ürəyim qardaşla vurdu hər zaman.

Dayana bilmirəm, yoxluğa inan.

Könlümü alammır, oğlum, yoldaşım.

Yanımdan qeyb olub, iki qardaşım.

Deyirlər, nə edək könlünü alaq?

Kədəri biz səndən tez uzaq salaq.

Onlara bu olur həmişə sözüm,

Doyubdu dünyada hər şeydən gözüm.

Qaytarın siz mənə qardaşlarımı.

Ancaq istəyirəm öz canlarımı.

Deyirəm, sizlərə, bax, dönə-dönə.

Onları qaytara bilərsiz mənə?

Dağı dağ üstünə qoyan yoldaşım.

Baxır ki, dən düşüb, ağarıb başım.

Əlacsız duruma düşür bir anda.

Sel kimi yaş gəlir gözümdən onda.

Qaytarmaq olmaz cavanlığımı?!

İstədim əlimlə tutam zamanı,

Qaytaram əvvəlki gözəl dövranı.

Həmin o dövran ki, sağlamlığımdı.

Bir daha dönməyən cavanlığımdı.

Həsədlə baxıram mən o illərə.

İllər iz buraxıb bu könüllərə.

Qaytarmaq olmayır keçən zamanı.

Saxlaya bilmirsən sevdiyin anı.

Elə ki keçəcək yaşın əlliyi,

Onda itirirsən sən gözəlliyi.

Saçlar bəyazlaşır, qırışır dəri.

Unuda bilmirsən qəmi-kədəri.

Gəlirsən həyatın yeni oynuna,

Qocalıq minəcək sənin boynuna.

Boynunda oturub sallayır ayaq.

Verəcək oradan özünə dayaq.

Düşürə bilməzsən oradan onu.

Bir gün gələcəkdir həyatın sonu.

Getsə də insandan gözəl cavanlıq,

Daimi qalacaq ancaq insanlıq!

Qızım

Özünlə xoşbəxtlik gətirdin mənə.

Nə desəm, gözəlim, yaraşar sənə.

Böyütdüm mən səni öz qucağımda.

Nurlara bələndin sən ocağımda.

Həmişə sənlə oynadım, güldüm.

Gündüzlər günəşim, gecə ay bildim.

Hər şeyi görürəm sənin gözünlə.

Fəxr etdim hər zaman qızım, özünlə!

Allahın verdiyi ən gözəl paysan.

Aləmə nur verən günəşə taysan.

Böyüdün ay qızım, sən pillə-pillə.

Yanaşı qoymaram səni bir güllə.

Çünki sən gözəlsən bütün güllərdən.

Xəbərim olmadı ötən illərdən.

Artıq sən böyüdün, mələk qız oldun.

Həyatı anlayan bir yaşa doldun!

Qocalığımdı mənim

Balam deyir, ay nənə,

Qulaq as, indi mənə.

Bax, düzünu söylə sən,

Gör kimə oxşadım mən?

Gülürəm mən gözümdən.

Çıxarmıram özümdən.

Baxın, mənim başıma.

Kirpiyimə, qaşıma.

Atamla eyniyəm mən!

Söyləyir məni görən.

Baxın gülüşümüzə

Necə yaraşır bizə?

Atamın oxşarıyam,

Dövlətiyəm, varıyam.

Ay nənə, oğlun sənin,

Qocalığımdı mənim!

Qocalıq adını artıq almışam

Bir səhər ayıldım, baxdım güzgüyə,
Elə bil baxırdım sanki özgəyə.

Kədərli bir qadın mənə baxırdı.
O baxış yandırıb, həm də yaxırdı.

Elə bil donmuşdu həmən o qadın.
Soruşsan bilməzdi yəqin öz adın.

İllərin kədəri örtmüş gözünü.
Tanıya bilmədi orda özünü.

Ordakı qadının saçı ağarmış.
Adamın başına qarlar yağarmış.

Üzünə kədərdən pərdə çəkilmiş,

İllərin əzabı orda əkilmiş,

Elə bil çökmüşdü onun sifəti.

Görürdüm ordakı kin-küdurəti.

Əyilmiş bir az da onun qaməti.

Poza bilməmişdi heç bir adəti.

Təəccüblə gen açdım iki gözümü,

Əlimlə yoxladım donmüş üzümü.

Kimdir o aynadan məni gözləyən.

Anbaan kölgətək, sanki, izləyən.

Dayanmış üz-üzə, bax, iki qadın.

Nə qoyaq ordakı baxanın adın?

Diqqətlə baxanda gördüm özümü.

Bu həyat demişdi artıq sözünü.

Ay Allah, beləmi mən qocalmışam.

Qocalıq adını artıq almışam?!

Qönçə çiçək

Sənlə döyünür hər an ürəyim.
Göylərdən, yerlərə enən mələyim.

Hurisən, pərisən yer üzündə sən,
Sənlə həmişə fəxr elədim mən.

Gözlərin, elə bil, ceyran gözüdü.
Səni çox-çox sevən anan özüdü.

Evimə nur salan bir çırağımsan,
İlahi bəxş eləyən bir uşağımsan.

Sən özün anasan, həm də ki, mələk.
Ətirli, çox incə, zərif bir çiçək.

Xoş gəldin, həyatım, sən bu cahana,

Sənlə fəxr etmir tək bircə ana.

Səni əzizləyir ellər, obamız,

Sənlə fəxr edir, bizim hamımız.

Qoşa qarıyın

Əzəldən belədir dünyanın işi.
Sirlərlə doludur onun keçmişi.

Görərsən, getsən sən bü gün hər yana,
Bir dəfə verilir həyat insana.

Həyatın hər zaman çıxart dadını,
Qoru sən həmişə məğrur adını!

Adıntək özün də çox vüqarlı-san!
Sözünə hər zaman etibarlısan.

Qəlbinin səsinə qulaq asmısan.
Yeni bir həyata qədəm basmısan.

Kədəri, qüssəni atdın kənara,

Könlünü ürəklə verdin bu yara.

Bütün xoş arzular qoy sizin olsun,

Xoşbəxtlik, səadət qəlbinə dolsun.

Siz qoşa qarıyın ömür böyunca.

Baxıb qoy sevinək biz də doyunca!

Qoy var olsun Qılışdı!

Gözəldir elimin odu, ocağı,
Gənnətdir hər yeri, künçü-bucağı!

Bu cənnət yetirir qızlar, oğlanlar,
Cənnətdə igiddir, bax, doğulanlar!

Nəslindən, kökündən tanınır insan,
Onlardan alıram ilhamı hər an!

Qılışdı, nəslidir, bax, mənim nəslim!
Hər yerdə məhşurdur bu gözəl əslim.

Qılışdı, sözünü söyləyən zaman,
Gözlərin önünə, bax, gəlir, inan.

Cəsarətli, hünərli oğlanları,

Dağ üstə qoyarlar, onlar dağları!

Yüksək vəzifədə olubdu çoxu,

Daşdan da keçəndir onların oxu!

Zəhmətlə, namusla çalışandılar.

Bütün çətinliyə alışandılar!

Qılışdının kəsərlidi sözləri,

Şux qamətli, uca boydu özləri,

Qonaqpərvər, mehribandı, Qılışdı.

Kasıblara əl tutandı, Qılışdı.

Çox gözəldir nəsildəki qadınlar,

Şir ürəyi yeyib sanki, bax, onlar.

Qılışdının qızları ismətlidir,

Bol süfrəli, özləri qismətlidır!

Mərhəmətli, sədaqətli xanımdı,

Onlar mənim ürəyimdi, canımdı!

Qoy var olsun, harda varsa, Qılışdı,

Heç zaman olmasın darda, Qılışdı!

Qurbandır qardaşa hər an bacılar

Qardaşdı dünyanın nazı, neməti.
Mən onda görmüşəm həmin hikməti.

Üzündən nur yağır, gözündən ağıl,
Qardaşlı dünyanın özü bir nağıl.

Dar günün dayağı olur qardaşlar.
Bacının yolunda ağarır başlar.

Həmişə dərdimə məlhəm olmusan,
Qəlbimi oxuyub, ora dolmusan.

Sən şərik olmusan qəmə-kədərə,
Mən qurban olaram belə qədərə.

Çünki şəriklidir nəvələrimiz,

Buna da ürəkdən şad olmuşuq biz.

Onların qəlbinə dolduq ikimiz,

Orda da birlikdə döyünürük biz!

Qurbandır qardaşa hər an bacılar,

Məhv olsun həyatda bütün acılar.

Quyunu dərin qazma

Geniş aç gözlərini,

Ayırd et sözlərimi.

Gəl mənə yazı yazma.

Quyunu dərin qazma.

Qulaq as sən sözümə,

Lazim olar özünə.

Gəl qoruyaq pərdəni.

Yığışdır bu hədəni.

Əməllə de sözünü.

Pis göstərmə özünü.

Vaxt gələr görəcəksən,

Çox şey itirəcəksən.

Gec olacaq bir zaman,

Qaytarammazsan inan.

Ötən gözəl günləri,

Oynatma, gəl, cinləri.

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Rəvayət

Bir eşşək doğulur, gəlir dünyaya.
İstəyir yüksəlsin günəşə, aya.

Gecə də, gündüz də eşşək çalışır.
Var-dövlət yığmağa başı qarışır.

Günlərin birində baxır güzgüyə.
O, həsəd aparır artıq özgəyə.

Düşünür, gəzəcəm mən də çəməni.
Adamlar eşşək tək tanıyır məni.

Bu gündən gəzməyə getsəm də hara,
Çıxardıb palanı, geyəcəm xara.

Deyir ki, gəzəcəm, indi hər yanı.

Mən şoka salacam, maral, ceyranı.

Daha heç baxmayır o, vara-yoxa.

Əyninə geyinir atlasdan çuxa.

Nəhayət, yetişir bülbüllü bağa.

Görür ki, gəzişir orda tısbağa.

Fəxrlə dolanır o yana-bu yana.

Özünü göstərir maral, ceyrana.

Ceyran ilə marala deyir, bir gün..

Qayda-qanun burada deyil düzgün.

Doğrunu deyirəm indi mən sizə.

Çanaqlı tısbağa yaraşmır bizə.

Bilmirəm, mən necə edirsə, etsin,

Libası köhnədi, qoy çıxıb getsin.

Tutdu eşşəkliyi, anqırdı yenə.

Dedi ki, tısbağa yaraşmır mənə.

Eşitdi bunları həmin tısbağa.

Başını uzatdı azca qabağa.

Söylədi, şahidi oldum indi mən.

Doğrudan lap elə eşşəksən ki, sən.

İndi də diqqətlə mənə qulaq as.

Palanın yerinə geyibsən atlas.

Atlasın ömürü neçə günlükdür?

Deyəsən, bax, yerin burda tünlükdür.

Sən harda görübsən bu çəmənliyi?

Veribsən özünə bu cür mənliyi.

Tövlədir öz yerin, dədə-babadan.

Şükür eylə, aldığın təmiz havadan.

Mənim yerim-yurdum bu çəmənlikdi.

Sədəfdən geydiyim çanaq mənlikdi.

Deyirəm, ay yazıq, varlansan da sən,

Doğrudan yenə də hələ eşşəksən!

Romanları yazan bacım

Sanki əkiz yaranmışıq.

Hər yanı bir dolanmışıq.

Yandırıbdı dərdim səni.

Tək qoymadın heç vaxt məni.

Mən yananda, sən də yandın.

Dərdlərimi dərdin sandın.

Mənlə yandın, sən kül oldun.

Suzsuz gültək mənlə soldun.

Şərik oldun, kədərimə,

Hər an yandın qədərimə.

Arxa-dayaq oldun mənə.

Arxalandım hər an sənə.

Anasısan nəslimizin!

Gözümüzə nursan bizim!

Qoy yox olsun dərdin, açın.

Romanları yazan bacım!

Ruhum doğulubdu

Qaranlıq qarışır, əsir küləklər.
Dünyanı seyr edir göydən mələklər.

Toran bürüyübdü, bü gün hər yanı.
Sanki gizildəyir insanın canı.

Bir xanım itirib öz yoldaşını,
Saxlaya bilməyir heç gözyaşını.

Yarını veribdi qara torpağa.
Baş sala bilməyir indi otağa.

Gizlicə o, tez-tez qapıya baxır.
Bu yoxluq qadını yandırıb yaxır.

Külək vıyıldayır, üşüyür canı.

Sanki donacaqdı damarda qanı.

Qadın düşünür ki, üşüyər kişi,

O orda nə gəzir, nədir ki, işi?

Elə bilir qapı açıldı birdən.

Yoldaşı göründü orda qəfildən.

Səs-küyü yenə də evlə bir oldu.

Şənliyi özünlə evinə doldu.

Səslədi: ay arvad, çıx qabağıma.

Xoş gəldin söylə sən öz qonağına.

Olsa da, bax, indi yerim məzarlıq,

Gəlmişəm, əlimdə yenə bazarlıq.

Ürəyim dözmədi, çox ağlayırsan.

Başına qaranı hey bağlayırsan.

Qıymaram mən sənə geyəsən qara.

Qoymaram heç zaman düşəsən dara.

Demə ki, yoldaşım köçüb dünyadan!

Ruhum doğulubdu indi anadan.

Əsən külək birdən sanki gücləndi.

Elə bil kənardan kimsə dilləndi.

Qadın bu səslərə açdı gözünü.

Narahat hiss etdi o an özünü.

Boylandı o yana, baxdı bu yana.

Birdə ki, kimsəsiz həmin məkana...

Şairim

Göz açdın dünyaya sən bir baharda .

Heç zaman qalmazsan, şairim, darda.

Otuz üç baharı bax, adlatmısan.

Düşməni bəlkə də sən çatlatmısan!

Yaradan bir şair bəxş etdi bizə!

Çox gözəl qiymətlər verdilər sizə.

Düşünüb deyirəm, şairim, hərdən,

İlhamı alırsan gözəlliklərdən!

Dəyərli yazırsan, mənası dərin,

Hələ ki, gözəldir sənin qədərin.

Sən şair olmusan, bu gənc yaşında.

Gör nələr yatıbdı sənin başında?

Səndəki o beyin qiymətlidir çox,

Yazdığın yazının heç əvəzi yox.

Sən nakam sevgidən yazırsan çoxu,

Yerində vurursan nöqtəyə oxu.

Oxucu ordun var sənin özünün.

Kəsəri böyükdür hər bir sözünün.

Xoş olsun qoy sənin gələn illərin.

Hər yana yayılsın qoy şeirlərin!

Sazın səsi

Həzin-həzin gəlir sazın xoş səsi.
Sanki sehirləyir bu səs hər kəsi.

Musiqi sədası göylərə qalxır.
Süzülüb su kimi qəlblərə axır.

Titrəyir sazdakı hər incə tellər.
Görünmür üstündə gəzişən əllər.

Mizrab toxunanda sarı simlərə,
Ruhani yayılır bütün ellərə.

Qaraçı havası, Yanıq Kərəmi,
Sədası bürüyür bütün aləmi.

Sənətkar saz ilə deyir sözünü.

Çalanda görəsən onun üzünü.

Aşıq çalan zaman yumar gözünü,

Sirli bir aləmdə görər özünü.

Onların özünün öz aləmi var.

Saz bizə qədimdən qalıb yadigar.

Şəfa yox, ölüm ver!

Əlini qaldırıb göylərə ana,
Ağlayır, danışır lap yana-yana.

Söyləyir, Allahım, nədir günahım?
Məni yandıracaq çəkdiyim ahım.

Zəhmətlə, əzabla böyütdüm onu,
Budurmu gördüyüm işlərin sonu?

Oğlumu saxladım mən əziyyətlə,
Sinəmdə böyütdüm çox xoş niyyətlə.

İşlədim həm gündüz, həm də ki gecə.
Evinə buraxmır o məni necə?

Qızı gətirmişdi əməliyyata,

Söylədi nə edim, əsəbin yata?

O gəlmir, mən varam sənin yanında.

Kədərdən dərd bitdi sənin canında.

Cərrahlar hazırdır, gözləyir səni,

Gövrəldib ağlatma, gəl, burda məni.

Ana əllərini qaldırdı yenə.

Dedi ki, Allahım, qurbanam sənə!

Al mənim canımı, salma yatağa,

Gəl möhtac eyləmə oğul-uşağa.

Dayanıb baxırdım ona kənardan,

Az qaldı ürəyim dayansın o an.

Sən bir gör nə günə qalıbdı daha,

Şəfa yox, ölüm ver, dedi, Allaha.

Şəhidin qanı

Hönkürüb ağlayır şəhid anası.
Əlindən gedibdi çünki balası.

Yerlər də, göylər də lap qan ağlayır.
Hamının gözündən leysan çağlayır.

Düşmən güllәsinə o, tuş gəlibdi.
Onun ürəyini güllə dəlibdi.

Hər yerə dağılıb şəhidin qanı.
Vətənin yolunda gedibdi canı.

Güllə parçalayıb düz sinəsini.
Biryolluq kəsibdi onin səsini.

Ananın naləsi qalxdı göylərə.

Lənətlər yağdırdı vuran əllərə.

Torpağı suladı şəhidin qanı.

Torpağın uğrunda verdi o, canı.

Balası bir şəhid adını aldı.

Şəhidlik zirvəsi qoynuna saldı.

Səmədli dünyam

Mənim gözəl oğlum, ağıllı balam!

İstərəm həmişə xoş sədan alam.

Gözlərim önündə böyümüsən sən.

Hər zaman sənlə fəxr elədim mən.

Üzündən nur yağır, gözündən ağıl.

Səmədli dünyanın özü bir nağıl.

İndi sən bəlli bir yaşa dolmusan.

Artıq özün daha ata olmusan.

Uşaqlıq illərin arxada qalıb.

Savadın hər yana səs-səda salıb.

Bütün arzuların çiçəklər açsın.

Üzündən aləmə qoy nurlar saçsın.

Mənim gözəl balam, sən yaşa, yarat.

Bütün arzulara, muradına çat.

Fəxr edir sənlə bu elin, oban.

Dağ kimi dalında dayanıb hər an.

Sən mənim mələyimsən

Gülaya

Bax, neçə gündür ki, mən,

Sənsiz heç dözəmmirəm!

Sən döyünən ürəyim!

Harda qaldın mələyim?

Mənsiz hər an ağladın,

Özünə çox bağladın.

Geriyə heç baxmadın,

Sonda əsir saxladın.

Bax, odlarda yanmışam,

Sənsiz susuz qalmışam.

Dərdlərimin dərnanı,

Nənənin şirin canı.

Bəs indi, görüm, hanı?

Yanımdakı şeytanı.

Şipşirin dillərinlə,

Şıltaq əməllərinlə,

Nənəni etdin əsir.

Qəm-qüssə məni kəsir.

Bilirsənmi, bax, necə?

Zülmət olubdu gecə.

Çünki yoxsan yanımda.

Quruyubdu qanım da.

Gəl, su tök ürəyimə,

Sən yetiş köməyimə.

Sən mənim mələyimsən!

Çırpınan ürəyimsən!

Çox öyrəşdim mən sənə,

Tez qayıt, gəl, nənənə.

Sənə gələn, mənə gəsin!

Qurban olum yanağına,

Gülüş qonan dodağına.

Gülümsəyib dayanmısan,

Sən nuramı boyanmısan?

Nur tökülür gül üzündən.

Zövq alıram, bax, özündən!

Suyum, havam, sən səsimsən!

Ciyərimdə nəfəsimsən!

Çıxmayırsan heç sözündən,

Xoşum gəlir, lap gözündən.

Gözün eynən atanındır,

Sənə şirni qatanındır.

İpək kimi tellərin var,

Eşitməli dillərin var.

Qoy yarım mən ürəyimi,

Yerə qoyum kürəyimi.

Səni orda əyləşdirim,

Ürəyimə yerləşdirim!

Qorxuram mən bəd nəzərdən.

Düşünürəm özüm hərdən.

Ürəyimdə gəzdirim mən.

Orda rahat olarsan sən!

Sənə gələn, mənə gəlsin!

Ürəyimi rahat dəlsin.

Bircə sən ol sağ-salamat,

Ürəyimdə sakitcə yat.

Toxunmasın heç nə sənə,

Nənə, deyə, səslən yenə!

Basım səni qucağıma,

Yerləşdirim ocağıma.

Birdən sənə soyuq olar.

Qüssə-kədər evə dolar.

Ovucumda tutum səni,

Şaxta, boran vursun məni.

Toxunmasın bircə sənə,

Sənə gələn, gəlsin mənə!

Bilmirəm ki, necə edim?

Sənlə birgə hara gedim?

Mən qoruyum necə səni?

Dəli etdi fikir məni!

Bax, qoyuram səni düzə.

Dayanıram üzbəüzə,

Yalvarıram mən Allaha!

Qalmadı taqətim daha.

Dolanıram mən başına,

Sənlə birgə qardaşına.

Uzun ömür diləyirəm.

Sizi nura bələyirəm.

Bax, ürəkdən deyim yenə,

Sizə gələn, gəlsin mənə!

Səni çox görməsin

Ağlını götürdün sən dəryalardan.

Sevimli olmusan doğulduğundan.

Mənim gözəl balam, dinlə, məni bil.

O gündən keçibdi artıq düz on il.

Tamamdır balamın bu gün on yaşı.

Təbrikə gəlibdi dostu, yoldaşı.

Sevinir birlikdə dostlar, tanışlar.

Aləmlə bir olub artıq alqışlar.

Gözündən nur yağır indi cahana.

Qurbanam sənin tək gözəl oğlana.

Daşıyır həyatda baba adını.

Sən çıxart, Münasib onun dadını.

Sən bizə əzizsən, dünyalar qədər!

Hec zaman əməyin getməsin hədər.

Allahdən diləyim budur ki, sənə,

Səni çox görməsin heç zaman mənə!

Səninləyik

Görmədim sənintək mərd bir qadını.

Aləmə tanıtdın gözəl adını.

Geniş bir ürəyin sahibisən sən.

Səndəki vüqara heyran oldum mən.

Heç kimdə olmayan cəsarətin var.

İnşallah, xəstəlik səndən rədd olar.

Qarşında ərisin, yox olsun azar!

Sinəndə açmasın xəstəlik bazar.

Səninlə bir vurur xalqın ürəyi.

Allah əsirgəməz səndən köməyi.

Dağ kimi dayanıb xalqın arxanda.

Sənə duaçıdır elim hər anda.

Yuxudan hər zaman gülərüz oyan.

Həmişə beləcə sən məğrur dayan.

Qələbə sənindir əziz bacımız.

Sənə duaçıyıq bizim hamımız.

Sənsiz həyat yoxdu mənə

Həyatımın sən özüsən,

Bil, ananın tək gözüsən.

Sənlə görür mənim gözüm.

Sənsizliyə necə dözüm?

Bircə kəlmən yetir mənə.

Qurban olsun anan sənə!

Ürəyimin teli əsir.

Sənsiz məni qüssə kəsir.

Mən deyirəm özüm sənə,

Sənsiz həyat yoxdur mənə.

Təkcə mənim xətrimə sən,

Özünə də fikir versən.

Yaşayaram onda mən də,

Bax, dərmanım ancaq səndə.

İstəsən ki, yaşayam mən,

Qoru onda özünü sən.

Sənsizliyə necə dözüm?

Qırxın artıq çatdı başa.

Daha döndün soyuq daşa.

Bu həyatı özün seçdin.

Mənsiz indi orda yaşa.

İncimişəm səndən özüm.

Sənsizliyə necə dözüm?

Donub qaldım mat-məəttəl,

Çətinliyi necə çözüm?

Öz-özümə danışıram.

Gah küsürəm, barışıram.

Tüstüm çıxır düz təpəmdən.

Kibritsiz də alışıram.

Yoxluğunla barışmıram,

İnsanlara qarışmıram.

Lap ürəyim partlayacaq.

Çünki sənlə danışmıram.

Mən səhərlər oyanıram.

Şəkilinlə dayanıram.

Yalvarıram sənə yenə,

Dönməyinə inanıram!

Sevdiyim gülsən

Güllərin içində sevdim bir gülü,
Bəyəndim quşlardan gözəl bülbülü.

Sevdiyim o güllər qızıl gülümdür.
Onu əzizləyən mənim dilimdir.

Bülbülüm dolanır gülün başına,
Sirrini söyləyir o sirdaşına.

Sən mənim sevdiyim həmin gülümsən.
Gülü əzizləyən şirin dilimsən!

Ürəyim döyünür həmişə sənlə.
Hər yanı dolaşdın, hər zaman mənlə.

Yanımda hərlənən kiçik mələksən,

Ətirli gül kimi mənə gərəksən.

Gül qoxun yetərli olur özümə.

Sən əməl edirsən, hər bir sözümə.

Gözümü bir yumdum, bir də açdım mən,

Gördüm ki, yanımda böyümüsən sən.

Ətirin yayılır indi hər yana.

Gözəllik gətirdin Azərbaycana!

Səninlə sevinsin həmişə anan,

Həm də fəxr eyləsin qoy Azərbaycan!

Sevdiyim sənsənmiş

Gəzirəm hər yanı çölü-çəməni.

Həmişə gözlərim axtarır səni.

Kaş yenə olaydı həmin o günlər.

Səni bürüyərdi çəməndə güllər.

Sən məftun eylədin özünə məni.

Unuda bilmədim ömürlük səni.

Gözümün önündən getmir gözlərin.

Gəlir qulağıma şirin sözlərin.

Əlimə alardım zərif əlini.

Külək oynadardı qara telini.

İtirdim mən səni, ey gözəl pəri.

Günahkar görürəm ötən illəri.

Quş kimi uçaraq illər yox olur.

Həsrətin yenə də qəlbimə dolur.

Düşünüb deyirəm, ey gözəl mələk!

Ürəkdən sevdiyim sənsənmiş, demək!

Sevgi gətirsin

Həmkarım Rəna Qurbanlının şərəfinə

Ey gözəl həmkarım, bir az güldən yaz.
Bülbül tək ötürsən, şirin dildən yaz.
Hərdən o Şirvandan, Muğandan da yaz.

Qələmin hər yanda güllər bitirsin.
Sevən hər ürəyə sevgi gətirsin.

***

İdeyan güclüdür, qələmin iti.
Hər zaman önünə baharı gətir.
Qəmli misralardan yapışma qəti.

Qələmin hər yanda güllər bitirsin.

Sevən hər ürəyə sevgi gətirsin.

***

Sən uca dağların bahar qızısan.

Sözün keşiyində ayıq durmusan.

Gördüm, yaza-yaza kamil olmusan.

Qələmin hər yanda güllər bitirsin.

Sevən hər ürəyə sevgi gətirsin!

***

Sən seir yazırsan, bacın da nasir.

Şeir yazmaq üçün ürək tələsir.

Baharda hər yanda gözəl meh əsir.

Qələmin hər yanda güllər bitirsin!

Sevən hər ürəyə sevgi gətirsin!

***

Gül-çiçək cox olsun, tənha olmasın.

Gülü qoxlayanlar nadan olmasın.

Heç kəs bu həyatda nakam qalmasin.

Qələmin hər yanda güllər bitirsin!

Sevən hər ürəyə sevgi gətirsin!

***

İstərəm məhəbbət yarı olmasın.

Sevən hər bir ürək yara almasın.

Heç yerdə sahibsiz sevgi olmasın.

Qələmin hər yanda güllər bitirsin!

Sevən hər ürəyə sevgi gətirsin!

***

Hər qəlbi oxuyub ələ almısan.

Onun sevgisinə nail olmusan.

Sınıq ürəkləri ovundurmusan.

Qələmin hər yanda güllər bitirsin!

Sevən hər ürəyə sevgi gətirsin!

***

İsmayıl söyləyir, uğurlar olsun!

Yazıb-yaratmağa marağın olsun.

Allahın bu yolda dayağın olsun.

Qələmin hər yanda güllər bitirsin!

Sevən hər ürəyə sevgi gətirsin!

29.03.2018

İsmayıl Zəngilanlı

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Söz verdim

Yazıçılar Birliyinin üzvü, şair

İsmayıl Zəngilanlıya cavab.

Həmkardan həmkara salamlar olsun.

Bu dünya durduqca, o, yaşa dolsun.

Var bizım çox özəl adətlərimiz.

Həmkara hörmətlə yanaşarıq biz.

Böyüyün sözləri qanundu bizə.

Bahardan yazmağı söz verdim sizə.

Dünyanın hər günü olmayır bahar.

Yağışlı payızı, qarlı qışı var!

Yaşasaq həyatda bizlər nə qədər,

Ömürlük qardaşdı sevinclə kədər.

Həyatın gecəsi, həm gündüzü var.

Nə qədər istəsən, hey yazmaq olar.

Rənglərin ağı var, həm də qarası.

Ağların qarayla nədir davası?

Ağın var özünün öz gözəlliyi.

Qaraya məxsusdu çox özəlliyi.

Yazmışam həmişə mən qarlı qışdan.

Qızılı paylzda yağan yağışdan.

Nə qədər olsa da, bahar füsunkar.

Onun arxasında qarlı bir qış var.

Sevirlər səni

Mən heyran olmuşam istedadına.

Nə desəm, yaraşar sənin adına.

Şox şeyə vermisən nə qədər əmək.

Olursan hamıya hər zaman kömək.

Adın da yaraşır sənin özünə.

Uşaqlar vurulub şirin sözünə.

Üzündən hər yana nurlar ələnir.

İş yerin tamamən nura bələnir.

Hamıya açırsan isti bir qucaq.

Şənlənir səsinlə bütün künc, bucaq.

Nənətək sevirlər uşaqlar səni.

Lap heyran edirsən səni görəni.

Heyranam səndəki bu mətinliyə.

Sən qalib gəlmisən hər çətinliyə.

Hər yerdə görünür sənin əməyin.

Həmişə Allahım olsun köməyin.

Şeyxdir mənim balam!

Onur və Nuraya

Mən baxıram bayaqdan.

Səni gördüm uzaqdan.

Təəccübləndirdin məni.

Heç tanımadım səni.

Ərəb şeyxi olmusan?

Neçə yaşa dolmusan?

Kim nə deyirsə, desin,

Bilməyənlər də bilsin.

Şeyxdir mənim balam,

Qadasını alaram.

Bax, oturub məkanda,

Çayı da istəkanda.

Var onun rəqqasəsi.

Çox da gözəldir səsi.

Həm oxuyur, oynayır.

Qazan kimi qaynayır.

Bu da mənim gülümdür!

Oxuyan bülbülümdür.

Paltarı yamyaşıldır.

Bax, bağca yoldaşındır.

Şeyxlə dost rəqqasə,

Elə bil girib bəhsə,

Nənənin ürəkləri.

Tər açmış çiçəkləri,

Sizdə olan gözləri.

Gözünüz nurla dolsun!

Bayramınız xoş olsun!

Şirin Ömərin özüdür

Yeddi gülün bir dənəsi,

Ona qurban mən nənəsi!

O, güllərin tər qönçəsi,

Ömər balam, bax, özüdür.

Güllərin ən ətirlisi,

Nəvələrin xətirlisi,

Uşaqların çox dillisi,

Ömər balam, bax özüdür!

O zərifdir, güllər qədər.

Qoy görməsin heç vaxt kədər!

Şıltaqlığı hər gün edər.

Ömər balam, bu özüdür!

Həyatından ləzzət alan,

Bu dünyaya işıq salan,

Var-dövlət də hamsı yalan,

Şirin Ömərin özüdür.

Sizin varlığınız yaşadır məni

Axtararam səni dünya düzündə,

Taparam yenə də bu yer üzündə.

İlahi yazıbdı mənə yazını,

Qardaşım bəxş etdi gözəl qızını.

Həyatda çox olub hədiyyələrim.

Mənimçün böyükdü sənin dəyərin.

Dünyada hər şeydən dəyərlisən sən.

Vaxt gələr bunları özün bilərsən.

Tək idi həyatda mənim öz oğlum.

Sənin köməyinlə bərkiyib qolum!

Bəxş etdin sən mənə iki övladı,

Necə də şirindir onların dadı?

Heç nədən bu dadı mən alammaram,

Onlarsız dünyada heç qalammaram.

Sizin varlığınız yaşadır məni.

Qorusun həmişə Yaradan səni!

Subaymı ölüm?

Mən də cavan olmuşam.

İndi yaşa dolmuşam.

Söyləyəcəm düzünü.

Gördüm pulun üzünü.

Cavanlığın var adı.

Pulun yoxsa, yox dadı.

Qızlar bəyənmir səni.

Deyir gətir küpəni.

İçi dolu pul olsun.

Var-dövlət evə dolsun.

Əgər yoxdursa pulu,

Allahın heç bir qulu.

Deyirəm, dönə-dönə,

Elçi gəlməsin mənə.

Düşünürəm bir anlıq,

Artıq kecib cavanlıq.

Ağarıb saçım, başım,

Kecib evlənmək yaşım.

Yığdım varı-dövləti,

Tapmadım o afəti.

Kimə elçi getsəm mən,

Deyirlər qocasan sən!

Var-dövlətlə cavanlıq,

Sonuma çatdı artıq.

Axtardımsa, harada,

Tapmadım bir arada.

Bax, indi deyin görüm,

Mən yetim subay ölüm?

Təbriklər bizimdir

Güllərin gözəldir, bax, özün qədər.
O gözəl ürəyin görməsin kədər.

Həyatda boğmasın heç səni qəhər.
Üzünə açılsın uğurlu səhər.

Uzaqda yaşamaq, bax, qədərindi,
Bilirəm, həmişə bu kədərindi.

Uzaqda olsan da, bizimləsən sən.
Çox gözəl bilirəm, anlayıram mən.

Öpürəm mən səni, qucaqlayıram.
Könlimdə həmişə yer saxlayıram.

Ürəkdə yerləşən bu yer sənindir!

Səni əzizləyən ürək mənimdir!

Bağrıma basıram, öpürəm səni,

Sən ki, yad etmisən bu gündə məni.

Bayramın mübarək mənim əzizim.

Təbriklər bizimdir, bax, ancaq bizim!

Tək bir odun ağlayırdı

Dəhşətə gəldim bu gecə,

Gözüm nələr gördü necə?

Tonqal yanıb alovlandı,

Ətraf tamam işıqlandı.

Çatır-çatır odun yandı.

Kibrit yaman hökümrandı.

Alov çəkdi qəhqəhəsin,

Taxtaların kəsdi səsin.

Alovların içində mən,

Göz yaşları gördüm dünən.

Tək bir odun ağlayırdı,

Ucundan yaş çağlayırdı.

Yaş töküldü gilə-gilə,

Bənzəyirdi artıq selə.

Odun deyil, burda inan,

Ağlayırdı sanki insan.

Eynən adam gözyaşıydı.

Bu bir həyat savaşıydı.

Ocaq tamam alovlandı.

Bütün odun, gördüm, yandı.

Tək bir odun üsyan etdi.

Sona qədər o da getdi.

Ah-naləsi qalxdı göyə,

Öz-özünü döyə-döyə.

Sonda yanıb külə döndü,

Bütün ocaq axır söndü.

Görəndə mən gözyaşını,

Əllə tutdum öz başımı.

Nə idi bu aman, Allah?

Şahidiyəm bunun, vallah.

Düz deyibdi, bu insanlar,

Quruynan bir yaş da yanar.

Tut əllərimdən

Yaxşı ki rast gəldim dünyada sənə.

Yaradan yazıbdı bəxtimi mənə.

Mələksən, sevgilim, gözəldir üzün.

Məni məftun etdi o qara gözün.

Uzat əllərini tutum əlindən.

Eşqindən Məcnuna döndüm axı mən!

Nə olar dön mənə, bir bax üzümə.

Sənə aşiq olan, sevən gözümə.

Mən oldum eşqindən dəli-divanə.

Sevgilim, eşqimə olma biganə.

İstərdim su kimi qəlbinə dolum.

Önündə qul olum, qoy kölən olum.

İnadkar olma, gəl, sevgimə inan.

Hər an sən mənimlə birgə gəz, dolan.

Ürəklə tut mənim sən əllərimdən.

Ölüncə əlini buraxmaram mən.

Üç məzar daşı

Çıxmışdım mən bu gün bir dağ başına.
Kədərlə baxırdım məzar daşına.

Şəkildən bir xanım baxırdı mənə.
O gözəl gözləri gülürdü yenə.

Yanında dayanmış məğrur qardaşı.
Bir də ki, körpənin kiçik başdaşı.

Bacı gülümsəyib söhbət edirdi,
Elə bil qardaşı fikrə gedirdi.

Körpə sığınmışdı öz babasına.
Düşmüşdü əcəlin sərt davasına.

Dağın təpəsində məskən salıblar,

Qohum-əqrəbadan ayrı qalıblar.

Dönməyə onların yoxdu imkanı,

Qara mərmərlərə çevrilib canı.

Hüzünlü işıltı var gözlərində.

Həsrətdən deyildi heç özlərində.

Ətrafda ot-alaf çox saralmışdı,

Qüssə-qəm orada məskən salmışdı.

Asta-asta sərin külək əsirdi,

Ömrümüz elə bil lap tələsirdi.

Vaxt-vədə ömürdən, gündən gedirdi.

Tamamən bizləri o tərk edirdi.

Dağın başındakı məkan dolurdu.

Hamı bu qanuna tabe olurdu.

Məzarla üz-üzə dayanmışdıq biz

Sakitcə baxırdı bizə körpəmiz.

Ürəyim titrədi, dizlərim əsdi.

Məni baxışları qılınc tək kəsdi.

Az qala qışqıram, mən haray salam,

Ya da ki, onunla birlukdə qalam.

Gördüm ki, heç nəyin yoxdur faydası.

Deməli, ölümün budur qaydası.

Heç nəyin olmayır ona əlacı.

Çarəsiz qalmışdım, qurtarıb sözüm

Heykəl tək dayanıb baxırdım özüm.

Küləyin dalğası dəydi üzümə,

Nəhayət ayıldım, gəldim özümə.

Ağır addımlarla mən çıxıb getdim,

Oranı kədərlə-qəmlə tərk etdim.

Ürəyimdi anam!

Qurban olsun anan sənin özünə.

Məni gözəl görən qara gözünə.

O gözəl gözlərin baxdı üzümə.

Mən gələ bilmirəm hələ özümə.

Gözlərin yaşardı, titrədi səsin.

Qəlbini oynatdın orda hər kəsin.

Bir cümlə söyləyib, dedin hamıya,

İstərəm qəlbimi hamı tanıya.

Sinəmdə döyünən ürəkdir ana,

Dünya bir yanadır, o da bir yana.

Kövrəldin, cümlənin gəlmədi dalı.

Hamının dəyişdi bütün əhvalı.

Xoş sözlər söylədi bacın, həm gəlin.

Qəlbımdə özəldi yeriniz bilin!

Sizlərsiz həyatda məni yaşadan.

Hər zaman sizinlə fəxr edir anan.

Uşaq bayramı

Bütün aləm bilir bu həqiqəti.
Uşaqdır dünyanın dadlı neməti.

Onlarla isinir bizim dünyamız.
Qoruyaq onları, gəlin, hamımız.

Onların hər biri gözəl mələkdir.
Hamısı vətənə, bizə gərəkdir.

Sülh istər uşaqlar ömür boyunca.
Qoy xoşbəxt yaşasın, onlar doyunca.
Uşaq bayramıdı, bu gün dünyada.
Hər biri layiqdi çox gözəl ada.

Mübarək olsun, qoy bu bayramımız!

Təbrik eyləyirik sizi hamımız!

Varmı xəbərin?

Balamın balası, incə çiçəyi!

Nənənin ürəyi, gözəl-göyçəyi.

Yaradan vəsf edib bizlərə səni.

Nə qədər şad edib bununla məni!

Mələklər mələyi, ey gözəl pəri!

Keçirdik sənlə gözəl illəri.

Bu ilin var qışı, həm də payızı.

Qoruyub sənin tək gözəl bir qızı.

Bənzərsən sən gözəl, zərif nərgizə!

Çox böyük xoşbəxtlik gətirdin bizə.

Unutmaq olmayır gözəl ətrini!

Hamı çox istəyir sənin xətrini.

Təbiətin sakit, zəkandı dərin.

Qoy xoşbəxt yazılsın sənin qədərin.

Nə qədər gözəldi qara gözlərin,

Varmı bundan sənin, görən, xəbərin?

Gözündən yayılır nurlar hər yana.

Fəxr etsin sənlə qoy doğan ana!

Nə qədər yaxınsan hər şirin cana?

Xoşbəxtlik gətir sən Azərbaycana!

Xəstələnmə!

Xəbərin çatıbdı bu axşam mənə,
Xəstəlik yaraşmır, gözəlim, sənə.

Sən qəlbən yaxınsan mənim canıma.
Allahım qıymasın sən tək xanıma.

Nəslimin gözəli, gül-çiçəyisən,
Məclislər bəzəyi, bir mələyisən.

Yaxına buraxma qüssə-kədəri,
Allahdır göndərən bizə qədəri.

Gözlərin mavidir, saçların sarı,
Həyat yoldaşınla bilikdə qarı!

Gur yansın evinin gözəl çırağı,

Nəfəsin isitsin bütün otağı.

Allahdan sağlamlıq diləyirəm mən.

Cavansan, bir daha xəstələnmə sən.

Götürmə üstünə ağrı-acını,

Əzizlə hər zaman öz baş tacını.

Xocalı

Xocalı deyəndə, tutulur nəfəs.

Dəhşətlə yad edir oranı hər kəs.

Bir zaman var olan Xocalı yoxdu.

Xocalı yarası olanlar çoxdu.

Hamının dərdidi, həmin bu yara.

Gecəynən düşdülər insanlar dara.

Dəhşətdi, zülmətdi həmin o gecə.

Günahsız insanlar məhv oldu necə?

Erməni baxmadı qıza, gəlinə,

Qandallar vurdular zərif əlinə.

Aman vermədilər heç bir cavana.

Qıydılar bal kimi hər şirin cana.

Güllə-boran etdi onlar körpəni.

Dəhşətə gətirdi hər bir görəni.

O gecə yanırdı bütün Xocalı.

Tarixə yazıldı onun işğalı.

Yüz yaşı olardı tamam

Atadır dünyanın şirin neməti,
Sözünün həmişə olur hikməti.

Atasız olmayır heç nəyin dadı,
Dərdinə qalanın atadır adı.

Atamı sevirəm dünyalar qədər,
Yoxluğu veribdi bizlərə kədər.

Kaş yenə olaydı o yanımızda,
Dərin iz buraxıb o hamımızda.

Tək qolla böyüdüb yeddi uşağı,
Şən olub həmişə onun ocağı.

Öz alın tərilə o qazanıbdı,

Düzlüyə, qanuna çox inanıbdı.

Gecə də, gündüz də atam çalışıb,

Bütün çətinliyə özü alışıb.

İyirmi üç olub nəvənin sayı,

Yaradan veribdi ona bu payı.

Qırx altı nəticə ona bəxş olub.

Yetmiş üç yaşında həyatı solub.

Dursaydı, yüz yaşı olardı tamam,

Mənimçün yaşayır həmişə atam.

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında